Allah Öz lütfünə sığınanları onunla (Peyğəmbər və Quran vasitəsilə) əmin-amanlıq (sülh) yollarına yönəldər, onları öz iznilə zülmətdən nura çıxarar və düz yola istiqamətləndirər!

*(Qurani-Kərim, əl-Maidə, 16)*

## "Heydər" məscidində Ankara terrorunun qurbanları anılıb

Azərbaycanın ən böyük məscidi olan "Heydər" məscidində bu il martın 13-də Türkiyənin paytaxtı Ankara şəhərində törədilən terror faciəsi nəticəsində həlak olan şəxslər anılıb. Bu barədə "Heydər" Məscidi Kompleksi İdarəsinin sədri hacı Sabir Həsənli məlumat verib.

O bildirib ki, qılınan namazlarda faciədə həyatını itirənlərin ruhuna dualar oxunub: "Martın 15-də "Heydər" məscidində qılınan günorta və axşam namazlarında Ankarada baş verən terror aktı nəticəsində həlak olanların ruhuna dualar edildi, Allahdan rəhmət diləndi".


www.scwra.gov.az

# Cəmiyyət və Din

*Dinimiz milli-mənəvi sərvətimizdir.*

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 03 (296) / MART 2016-cı il


### Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev:

Bizim birliyimiz əbədidir, sarsılmazdır. Yaxşı günlərdə də, ağır günlərdə də biz daim bir-birimizin yanındayıq. Biz Azərbaycanda tam əminik ki, Türkiyə xalqına və dövlətinə qarşı törədilmiş terror aktlarının heç bir nəticəsi olmayacaq. Bu, Türkiyə dövlətini sarsıda, türk xalqının iradəsinə təsir edə və Türkiyəni haqq yolundan döndərə bilməz.



### Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan:

Biz vətəndaşlarımızın təhlükəsizliyinə qəsd edən, ölkəmizi təhdid edən bütün terror təşkilatlarına qarşı mübarizəmizi davam etdirəcəyik. Bu məsələdə Azərbaycanın bizi dəstəklədiyini bilirik. Bu gün buraya gələrək bunu sübut etdiniz. Həm də əsl dostluğun və qardaşlığın nə demək olduğunu bizə göstərdiniz. Millətimiz bunu heç vaxt unutmayacaq.



### Azərbaycan multikulturalizmi bir model kimi böyük maraq doğurur

səh. 6

### Bakıda "Çoxqütblü dünyaya doğru" mövzusunda IV Qlobal Forum keçirilib

səh. 2-5

### Dövlət Komitəsinin sədri Hacıqabulda vətəndaşları qəbul edəcək

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin bölgələrdə vətəndaşları qəbulu davam edir.

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı martın 17-də Hacıqabul rayonunda Şirvan, Hacıqabul və Qobustan rayon sakinlərini qəbul edəcək. Qəbul Hacıqabul şəhəri Heydər Əliyev Mərkəzində (Hacıqabul şəhəri, İ.Qayıbov küçəsi, 1) saat 10:00-da keçiriləcək.

Qəbula gəlmək istəyən vətəndaşlardan Dövlət Komitəsinin Şirvan bölgəsi üzrə şöbəsinə müraciət etmələri xahiş olunur.

### BÖLGƏ MÜDİRLƏRİMİZ HESABAT VERİR



## ŞƏKİ

səh. 12-13

### Səyyad Salahlı: "Radikal dini qrupların fəaliyyəti günü-gündən zəifləyir"

səh. 8

### Səyavuş Heydərov: "Dini və multikultural təhlükəsizlik milli təhlükəsizliyin tərkib hissəsidir"

səh. 11




Səh. 9



### NOVRUZ ATRİBUTLARInın fəlsəfəsi və yaşanan ənənəsi

səh. 14

### MÖVLANAnın təfəkkür dünyası və ilahi eşq

səh. 15

# Azərbaycan Prezidenti Türkiyədə işgüzar səfərdə olub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də Türkiyə Respublikasına işgüzar səfərdə olub.

Ankarada rəsmi qarşılanma mərasimi başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın təkbətək görüşü keçirilib.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişafından məmnunluq ifadə edildi. Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının beşinci iclasının ələqələrimizin daha da dərinləşməsi işinə xidmət etdiyi vurğulanıb.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlərə dair fikir mübadiləsi aparılıb.

Sonra Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının beşinci iclası keçirilib, dövlət başçıları nitq söyləyiblər. İclasda ölkələrimiz arasında həyata keçirilən enerji, nəqliyyat layihələrinin icrası, qarşılıqlı investisiya, turizm, humanitar və digər sahələrdə əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparılıb.

Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının beşinci iclası başa çatdıqdan sonra prezidentlər İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Azərbaycan-Türkiyə sənədlərinin imzalanması mərasimi olub.

"Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının beşinci iclasının Protokolu"nu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan imzalayıblar.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında hərbi/mülki heyətin sosial və mədəni məqsədli mübadiləsinə dair Protokol"u Azərbaycanın Türkiyədəki səfiri Faiq Bağırov və Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının şəxsi heyət üzrə rəisi, korpus generalı İlhan Talu imzalayıblar.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında diplomatik nümayəndəlik və konsulluqların əməkdaşlarının ailə üzvlərinin haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaları haqqında Saziş"i Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Türkiyənin xarici işlər naziri Mövlüd Çavuşoğlu imzalayıblar.

"Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Türkiyə Respublikasının Daxili İşlər Nazirliyi arasında məhkəmə ekspertizası sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Şərifov və Türkiyənin daxili işlər naziri Efkan Ala imzalayıblar.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında sürücülük vəsiqələrinin qarşılıqlı tanınması və dəyişdirilməsi haqqında Saziş"i Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Şərifov və Türkiyənin daxili işlər naziri Efkan Ala imzalayıblar.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında texniki əməkdaşlıq haqqında Protokol"u Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Şərifov və Türkiyə Respublikası Baş nazirinin müavini Yalçın Akdoğan imzalayıblar.

Sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata bəyanatlarla çıxış ediblər.

Daha sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə ziyafət verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasına işgüzar səfəri həmin gün başa çatıb.

## "2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsinə dair Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq "2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı ilin 11 yanvar tarixli 1673 nömrəli Sərəncamına uyğun olaraq qərara alıram:

1. "2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsinə dair Tədbirlər Planı" təsdiq edilsin (əlavə olunur).

2. Bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş Tədbirlər Planının icrasının təşkilində əlaqələndirici orqan Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi müəyyən edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. "2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsinə dair Tədbirlər Planı"nda nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsini təmin etsin;

3.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 11 mart 2016-cı il.*

# Bakıda "Çoxqütblü dünyaya doğru" mövzusunda IV Qlobal Forum keçirilib

## Azərbaycan Prezidenti İlham Əliyev Forumun açılışında iştirak edib

Martın 10-da Azərbaycanın paytaxtında "Çoxqütblü dünyaya doğru" mövzusunda IV Qlobal Bakı Forumunun rəsmi açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva, bir sıra ölkələrin dövlət və hökumət başçıları Forumun rəsmi açılışında iştirak ediblər.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən IV Qlobal Bakı Forumunda bu dəfə münaqişələrin qarşısının alınmasında dinlərarası dialoqun rolu, miqrasiya, multikulturalizm və inteqrasiya məsələləri, o cümlədən qlobal təhlükəsizliyin təmin olunması kimi mühüm məsələlər müzakirə edilib. Bundan başqa, enerji və qlobal idarəçiliyin perspektivləri ilə bağlı məsələlər də Forumun gündəliyinə daxil olunub.

Albaniya, Monteneqro, Bolqarıstan, Gürcüstan prezidentlərinin də qatıldığı Forumda 27 sabiq prezident və 23 sabiq baş nazir də daxil olmaqla, 53 ölkədən 300-dən çox nümayəndə iştirak edib.

Dördüncü Qlobal Bakı Forumunu açan Misirin İsgəndəriyyə Kitabxanasının direktoru, Nizami Gəncəvi Beynəlxalq




Mərkəzinin həmsədri İsmail Serageldin hazırda dünyanı narahat edən məsələlərin çoxşaxəli olduğunu bildirərək, bu problemlərin aradan qaldırılması üçün müzakirələrin aparılmasının vacibliyini diqqətə çatdırıb. O, IV Qlobal Bakı Forumunun bu baxımdan xüsusi əhəmiyyətə malik olduğunu vurğulayıb və bu cür mötəbər tədbirə ev sahibliyi etdiyinə görə Azərbaycana minnətdarlığını bildirib.

Dövlətimizin başçısı rəsmi açılışda nitq söyləyib.

⇨ 3

# Bakıda "Çoxqütblü dünyaya doğru" mövzusunda IV Qlobal Forum keçirilib




## Azərbaycan Prezidenti İlham Əliyevin nitqi:

**- Hörmətli xanımlar və cənablar. Hörmətli qonaqlar.**

Əvvəlcə hamınıza Azərbaycana "Xoş gəlmisiniz" deyirəm, sizi yenidən görməyimə çox şadam. Eyni zamanda, şadam ki, Bakı Qlobal Forumu yaxşı ənənəyə çevrilir.

İlk öncə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Şurasına və həmsədrlər xanım Vayra Vike-Freyberqaya və cənab İsmail Serageldinə təşəkkürümü bildirmək istərdim ki, onların böyük töhfəsi sayəsində Nizami Gəncəvi Beynəlxalq Mərkəzi qısa bir zamanda dünya miqyaslı beynəlxalq təsisata çevrilib.

Bu gün biz beynəlxalq gündəlikdə duran geniş məsələləri müzakirə edəcəyik. Əlbəttə, müzakirələrin mövzuları hamımız, bütün bəşəriyyət üçün çox əhəmiyyətlidir. Lakin əminəm ki, Forumda iştirak edən qonaqlar öz dəyərli fikir və ideyaları ilə dünyada sülh, təhlükəsizlik və proqnozlaşdırıla bilmə naminə bu işə töhfələrini verəcəklər. Hər bir beynəlxalq forum, onun səviyyəsi əsas etibarilə tədbir iştirakçılarının səviyyəsindən asılıdır. Burada, qonaqlarımız arasında 50-dən artıq hazırkı və sabiq dövlət və hökumət başçıları, görkəmli siyasətçilər, ictimai xadimlər və mütəxəssislər vardır. Bu isə bizim bu gün və sabah aparacağımız müzakirələrin səviyyəsini nümayiş etdirir.

Sonuncu dəfə ötən ilin yazında görüşümüzdən bu günədək dünyada vəziyyət dəyişmişdir. Hamımız bunun şahidiyik və təəssüf ki, dəyişikliklər müsbət məcrada olmamışdır. Dünya daha da sakit və təhlükəsiz olması əvəzinə, daha da təhlükəli olmuşdur. Bizim regionda da vəziyyət kəskin şəkildə dəyişmişdir. Mövcud münaqişələr həll edilməmiş qalır, bununla yanaşı, yeni münaqişələr, yeni qarşıdurma və təhlükə bölgələri yaranmışdır. Bu səbəbdən hesab edirəm ki, dövlət və hökumət başçıları, siyasətçilər olaraq biz gərginliyin azaldılması üçün rolumuzu oynamalıyıq. Çalışmalıyıq ki, əməkdaşlıq, qarşılıqlı anlaşma və hörmət üçün zəmin yaransın. Əks təqdirdə, gələcəkdə vəziyyət pisləşməkdə davam edəcək.

Yaxın Şərqdə və Avropanın müəyyən yerlərindəki vəziyyət, qaçqın böhranı – bunlar son illərin reallıqlarıdır. Odur ki, IV Qlobal Bakı Forumunun əsas məqsədlərindən biri bu məsələlərin müzakirəsidir və xüsusilə də iştirakçıların səviyyəsi, onların beynəlxalq məsələlərə töhfələri, təcrübə və biliklərini nəzərə alsaq, bunların hamısı yaranmış vəziyyətdən çıxış yolunun tapılmasına yardım edə bilər.

Düşünürəm ki, hamımız vahid məqsəd - əməkdaşlıq, qarşılıqlı anlaşma, sabitlik və sülhün təşviqi ətrafında birləşmişik. Çünki biz bir-birimizlə bağlıyıq. Bəzən adama elə gələ bilər ki, televiziya vasitəsilə izlədiyimiz qorxulu hadisələr yad bir planetdə baş verir. Lakin reallıqda bu, qonşuluqda baş verir və qaçqın böhranı nümayiş etdirdi ki, biz bir-birimizlə əlaqəliyik. Hər bir əməl, addım və ya digər dövlətlərin daxili işlərinə müdaxilə mütləq həmin müdaxiləni edənlər üçün çətinliklər yaradacaqdır.

Hesab edirəm ki, bugünkü reallıqların ibrət dərsi məhz budur. Biz bir-birimizə ehtiram nümayiş etdirməli, seçimə, ərazi bütövlüyünə və gələcəklə bağlı planlara hörmətlə yanaşmalıyıq. Bunların hamısı təmasda olmaq üçün zəruridir. Çünki əsas məqsədimiz gərginliyin və mövcud təhlükələrin azaldılmasıdır.

Bu il Azərbaycan müstəqilliyinin 25-ci ildönümünü qeyd edəcək. Bu illərdə, xüsusilə müstəqilliyin ilk illərində biz vətəndaş müharibəsi, humanitar böhran, işğal, təcavüz, iqtisadi çətinliklər və deyərdim, iqtisadi iflasdan əziyyət çəkmişik. Azərbaycan terror hücumlarının hədəfinə çevrilmişdir. 1990-cı illərin əvvəlində erməni terror təşkilatları dəfələrlə mülki vətəndaşlara qarşı terror aktları törətmişlər. Bu gün təəssüf ki, Ermənistan və Azərbaycan arasında olan münaqişə həll olunmamış qalır.

Müstəqillik illərində ölkəmizin böyük uğurlara nail olaraq, müasir, sabit, proqnozlaşdırıla bilən, özünü təmin edən dövlətə çevrilməsinə baxmayaraq, bu münaqişə öz həllini tapmalıdır. Onun üçün həll olunmalıdır ki, 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün evlərinə qayıtsın, zorakılığa son qoyulsun və regionumuzda sülh bərqərar olunsun. Belə olmadığı halda bütün ölkələr əziyyət çəkəcəkdir. Azərbaycanın tarixi və hüquqi ərazilərini işğal edən Ermənistan bundan bəhrələnə bilməmişdir. İqtisadi çətinliklər, təcridolunma, miqrasiya və yoxsulluq həmin təcavüzün və işğalın nəticəsidir.

Dağlıq Qarabağ Azərbaycanın tarixi və hüquqi bir parçasıdır. Bütün beynəlxalq birlik Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Bu münaqişə nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş, bizə qarşı etnik təmizləmə aparılmışdır. Ərazimizin 20 faizinin işğalı hələ də davam etməkdədir. Beynəlxalq təşkilatlar, xüsusilə də BMT və onun Təhlükəsizlik Şurası erməni qoşunlarının Azərbaycanın işğal edilmiş ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən çoxsaylı qətnamələr qəbul etmişdir. Təəssüf ki, bu qətnamələr həyata keçirilməmişdir.

Düşünürəm ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasının mexanizmi məsələsi xüsusi mövzu kimi müzakirə edilməlidir. Bəzən Təhlükəsizlik Şurasının qətnamələri bir neçə saat və ya gün içərisində icra edilir. Bizə gəldikdə isə, artıq iyirmi il keçir. Bu, siyasi iradənin, xüsusilə də həmin qətnamələri qəbul edən dövlətlərin siyasi iradəsinin olmamasının təzahürüdür.

Bu gün danışıqlar prosesi davam edir və burada hər hansı bir uğur yoxdur. Bunun başlıca səbəbi isə Ermənistanın sülh istəməməsidir. Onlar işğal edilmiş ərazilərin özlərinin qeyri-qanuni nəzarətində saxlanılmasını və status-kvonun dəyişməz olaraq qalmasını istəyirlər. Bu isə mümkünsüzdür – status-kvo dəyişməlidir. Danışıqlar prosesində həmsədrlik edən üç ölkə - Təhlükəsizlik Şurasının daimi üzvü olan üç dövlət dəfələrlə çıxış edərək status-kvonun qəbuledilməz və dəyişməli olduğunu bəyan etmişdir. Buna nail olmaq üçün Ermənistan işğal edilmiş əraziləri tərk etməli və işğala son qoymalıdır. XXI əsrdə hər bir nöqteyi-nəzərdən, istər siyasi, istər hüquqi, istərsə də humanitar baxımdan qonşu dövlətin ərazisinin işğalı və danışıqlar prosesinin əngəllənməsi tamamilə anormal haldır.

Hesab edirəm ki, münaqişənin həlli üçün ilk olaraq Azərbaycan daha da qüdrətli olmalıdır və proses davam edir. İkincisi isə beynəlxalq ictimaiyyət, xüsusilə də bu münaqişə ilə məşğul olmaq mandatına sahib dövlətlər siyasi iradə nümayiş etdirməli və təcavüzkarı işğala son qoymağa məcbur etməlidirlər. Necə ki, biz bunu dünyanın bir çox yerlərində görürük - təcavüzkar dayandırılır, cəzalandırılır, sanksiyalara məruz qalır və işğala son qoyulur.

İşğal edilmiş ərazilərimizdə hər şey darmadağın edilmişdir. ATƏT oraya iki dəfə faktaraşdırıcı missiya göndərmişdir və hər iki halda onların hesabatları real vəziyyəti əks etdirmişdir. Bu, bizə də məlumdur. Bizim bütün tarixi abidələrimiz, məscidlərimiz, məzarlıqlarımız dağıdılmışdır. Bu gün biz tez-tez televiziya kanallarında Yaxın Şərqdə tarixi abidələrin məhv edilməsi ilə bağlı reportajlar izləyirik. İyirmi il bundan öncə eyni hadisələr Azərbaycanın işğal edilmiş ərazilərində baş vermişdir. Fərq ondan ibarətdir ki, o zaman beynəlxalq ictimaiyyət və media bu mövzuya o qədər də əhəmiyyət verməmiş, bəlkə də həmin məlumatlara çıxış əldə edə bilməmişdir. Ancaq mahiyyət dəyişmir – eyni məsələ və eyni yanaşma. Bu isə regionun sülh və təhlükəsizliyi baxımından çox qorxulu məsələdir. Çünki təcavüzkar cəzalandırılmadığı halda o, yeni bir ssenari planlaşdıracaq.

1990-cı illərin əvvəlində üzləşdiyimiz bu vəziyyətə və humanitar böhrana baxmayaraq, Azərbaycan uğurla inkişaf etmişdir. Yeri gəlmişkən deyim ki, həmin vaxt adambaşına düşən qaçqın sayına görə ən yüksək göstərici bizdə idi – 1 milyondan artıq insan doğma torpaqlarında qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. O zaman bizim əhalimizin sayı təqribən 8 milyona bərabər idi. Yəni, biz humanitar böhranın öhdəsindən gəlməyi bacaran ölkəyik.

O vaxtkı Azərbaycan bugünkü Azərbaycandan fərqli idi. Yoxsul, müstəqilliyini yeni bərpa etmiş, iqtisadiyyatı bərbad vəziyyətdə və sənayesi dağılmış olan ölkənin gələcək ilə bağlı per-

⇨ 4

# Bakıda "Çoxqütblü dünyaya doğru" mövzusunda IV Qlobal Forum keçirilib



3 ⇦ spektivləri yox vəziyyətində idi.

Əsas məqsədimiz dövlətimizi qurmaq, güclü iqtisadiyyat yaratmaq, ölkəni xarici sərmayələr üçün açmaq və dünyanın bazar iqtisadiyyatı sisteminin tərkib hissəsinə çevrilməkdən ibarət idi.

Biz buna nail ola bildik. Bu gün ölkə sabitdir və biz islahatları davam etdiririk. Azərbaycanda siyasi və iqtisadi islahatlar paralel şəkildə aparılır. Bütün fundamental azadlıqlar təmin edilir – söz azadlığı, toplaşma azadlığı, dini azadlıq, media azadlığı. Bizdə azad internet mövcuddur. Son iyirmi ildir ki, senzura ləğv olunub və vətəndaşlarımızın 70 faizdən çoxu internet istifadəçisidir. Siyasi azadlıqlar iqtisadi islahatlarla dəstəklənir.

2004-2014-cü illərdə Azərbaycan iqtisadiyyatı dünyanın ən sürətlə inkişaf edən iqtisadiyyatı olmuşdur. Biz işsizlik və yoxsulluğu kəskin şəkildə azaldaraq 40 faizdən 5 faizə endirməyə müvəffəq olmuşuq. İqtisadiyyatımız daha da rəqabətqabiliyyətli olmuşdur və Davos İqtisadi Forumunun hesablamalarına əsasən rəqabət qabiliyyətinə görə Azərbaycan iqtisadiyyatı dünyada 40-cı yerdədir. Biz əsas infrastruktur layihələrini, o cümlədən insanlarımızın yaşayış standartlarını yaxşılaşdırmaq üçün sosial infrastruktur layihələrini icra etmişik və bununla da həm də sərmayələr üçün daha münbit şərait yarada bilmişik.

Adambaşına düşən birbaşa xarici sərmayəyə görə biz ən qabaqcıl mövqelərdəyik. Bu, ilk növbədə neft-qaz sahəsinə yatırılmış sərmayələr idi. Hazırda isə biz qeyri-neft sektoruna sərmayəçilər cəlb etməyə çalışırıq. Neft və qazdan asılılığımızın azaldılması islahatlarımızın tərkib hissəsi olmuşdur və bunun nəticəsində bu gün neft-qaz sahəsi bizim ümumi daxili məhsulun təqribən 30 faizini, büdcə gəlirlərimizin isə 50 faizini təşkil edir. Məqsədimiz neft və qazdan asılılığımızı tamamilə aradan qaldırmaqdır. Bu yaxınlarda dediyim kimi, Azərbaycan üçün postneft dövrü artıq başlamışdır. Ona görə yox ki, biz hasilatı azaltmışıq. Neftin qiyməti kəskin şəkildə - dörd dəfə aşağı düşmüşdür. Bu səbəbdən tamamilə yeni bir vəziyyət yaranır və dünyanın heç bir ölkəsi buna hazır deyildi. Heç kəs təsəvvür edə bilməzdi ki, bir ilin içində qiymət bu dərəcədə kəskin şəkildə aşağı düşsün. Bu səbəbdən biz bu vəziyyətin mənfi nəticələrinin aradan qaldırılması üçün fəal və səmərəli işləməli olduq. Hazırda bizim maliyyə vəziyyətimiz yenidən sabitdir, proqnozlaşdırıla biləndir və məlumat verməK istərdim ki, büdcəmizdə neftin barrelinin qiyməti 25 dollar səviyyəsində nəzərdə tutulmuşdur. Bu isə hər hansı bir iqtisadi çətinliyə qarşı bir növ zəmanət deməkdir. Bizim Neft Fondunda böyük vəsaitlərimiz var ki, bu, yaranmış vəziyyətdən minimum risklə çıxmağımıza imkan verir.

Eyni zamanda, bu vəziyyət bizi islahatlarla bağlı daha da səmərəli işləməyə məcbur edir və artıq islahatların böyük hissəsi tətbiq edilməkdədir. Bu islahatlar Beynəlxalq Valyuta Fondu tərəfindən də dəstəklənir – yəni, biz düzgün yoldayıq. Hazırda biz iqtisadiyyatımızın şaxələndirilməsi məsələsi ilə məşğul oluruq və iqtisadi inkişafın yeni sahələrini müəyyən edirik. Onlardan biri bizim illərdir ki, çalışdığımız, lakin beynəlxalq birlik üçün tamamilə yeni sahə olan nəqliyyat infrastrukturunun yaradılmasıdır. Biz Azərbaycana gələcəkdə bu regionda güclü mövqeyə malik olmağa imkan verəcək nəqliyyat infrastrukturu şəbəkəsi yaradırıq.

Bizim coğrafi mövqeyimiz çox əlverişlidir. Bu səbəbdən nəqliyyat infrastrukturuna, o cümlədən dəmir yollarının, hava və dəniz limanlarının inşasına yatırılan sərmayələr sayəsində biz nəqliyyat infrastrukturlarının kəsişmə nöqtəsinə çevrilirik. Artıq Şərq-Qərb nəqliyyat dəhlizi fəaliyyətə başlamışdır və ümid edirəm ki, bu il biz Azərbaycan, Gürcüstan və Türkiyə dəmir yollarının birləşdirilməsini başa çatdıracağıq. Beləliklə, Avropa və Asiya yeni, ən qısa nəqliyyat marşrutu əldə edəcəkdir. Çindən Avropaya gedən ilk konteyner qatarı artıq Azərbaycan ərazisindən keçmişdir. Bu, müasir infrastruktura malik olan yeni İpək Yoludur və biz bu marşrutu daha da cəlbedici etmək üçün tərəfdaşlarımıza vahid tariflərin tətbiqini təklif etmişik.

Qonşularımız və tərəfdaşlarımızla birgə çalışdığımız daha bir layihə Şimal-Cənub nəqliyyat dəhlizidir ki, onun sayəsində yüklər Pakistandan Hindistana, daha sonra İrana, oradan Azərbaycan ərazisindən Rusiyaya və Şimali Avropaya nəql ediləcəkdir. Azərbaycan müasir infrastruktura sərmayə qoyur və ümid edirəm ki, tezliklə bu marşrutdan istifadə olunmağa başlanacaqdır. Yəni, bütün bu marşrutlar bizim ərazidən keçir. Təbii ki, bu, Azərbaycanın geosiyasi əhəmiyyətini artırır və gələcəkdə bizə ölkəmizin inkişafına sərf ediləcək əlavə gəlirlər gətirəcəkdir.

Əlbəttə, iqtisadiyyatımız üçün enerji sektoru öz önəmini saxlayır və bu gün enerji təhlükəsizliyi baxımından onun əhəmiyyəti artmaqdadır. Ötən ayın sonu - fevralın 29-da biz Bakıda, həmin bu zalda "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının ikinci iclasını keçirmişik. Biz bu layihəni XXI əsrin layihəsi adlandırırıq. Bu, bir meqalayihədir və bu gün Avropada həyata keçirilən ən iri infrastruktur və enerji layihələrindən biridir. Onun təşəbbüskarı Azərbaycandır və Azərbaycan burada həm də təşkilatçı və sərmayəçi qismində aparıcı rol oynayır. Layihənin dəyəri 45 milyard dollara bərabərdir və bu işdə biz müxtəlif dövlət və şirkətlərdən ibarət güclü komanda yaratmışıq.

Həmin Məşvərət Şurasının yaradılmasında əsas məqsəd səylərimizin əlaqələndirilməsi və layihənin cədvəl üzrə icrasını təmin etməkdən ibarətdir. Bu layihə bir neçə mərhələdən ibarətdir. "Cənub" qaz dəhlizinin dörd elementi var. Azərbaycanın nəhəng qaz yatağından hasil olunan qaz öz aralarında birləşmiş 3500 kilometr uzunluğunda üç qaz boru kəməri vasitəsilə Bakını İtaliyanın limanları ilə birləşdirəcəkdir.

Əlbəttə, bu, nəhəng sərmayədir və bu layihənin əlaqələndirməyə ehtiyacı vardır. Fevralın 29-da məhz bu zalda 11 dövlətin və Avropa Komissiyasının iştirakı ilə Bəyannamə imzalanmışdır ki, orada Azərbaycanın "Cənub Qaz Dəhlizi" layihəsinin həyata keçirilməsində mühüm və strateji rolu vurğulanmışdır. Biz həqiqətən də müxtəlif ölkələrdən ibarət komanda yaratmışıq və kəmərin marşrutu boyu yerləşən ölkələrin adlarını sadalamaq istərdim – Azərbaycan, Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, Albaniya, İtaliya "Cənub Qaz Dəhlizi" layihəsinin üzvləridir. Daha iki dövlət – Xorvatiya və Monteneqro da Bəyannaməni imzalamışlar və əminəm ki, qarşıdan gələn illərdə onlar da heyətimizə qoşulacaqlar. Bəyannaməni imzalayanlar sırasında ABŞ və Böyük Britaniya hökumətlərinin yüksək səviyyəli nümayəndələri və Avropa Komissiyasının vitse-prezidenti də olmuşdur. Yəni, bu 12 imza onu nümayiş etdirir ki, "Cənub" qaz dəhlizi artıq reallıqdır.

Bu, enerji təhlükəsizliyi, enerji şaxələndirilməsi və azad rəqabət layihəsidir. Zənnimcə, bütün enerji layihələri məhz bu şəkildə icra edilməlidir. Bizim əsas məqsədimiz bu layihəni başa çatdırmaqdır və onu kommersiya layihəsi kimi həyata keçirməkdir. Bəzən enerji təhlükəsizliyinə aid olan məsələlər həddindən artıq siyasiləşdirilir və biz bunun əleyhinəyik. Siyasət və enerji bir-birindən ayrı olmalı, enerji siyasi alət kimi istifadə edilməməlidir. Həmçinin onun bu şəkildə istifadə edilməsi, biznes fəaliyyətinə müdaxiləsi də çətinliklər yaradır.

Bu layihə sayəsində Azərbaycan bundan sonra onilliklər ərzində öz təbii sərvətlərini ixrac edəcək və bazarları şaxələndirəcək. Avropa üçün isə bu, ehtiyac duyacağı qazın yeni mənbəyi deməkdir və bununla avropalı istehlakçıların tələbatı təmin ediləcəkdir. Baxmayaraq ki, bu gün biz dünyada iqtisadi çətinliklərin şahidi oluruq, ancaq bu, müvəqqətidir və neftin qiyməti uzun müddət belə aşağı səviyyədə qalmayacaqdır. İqtisadi artım fəallığı yüksəldəcək və Avropanın təbii qaza olan tələbatı yalnız artacaqdır. Burada hər kəs üçün yer olacaqdır. Düşünürəm ki, lüzumsuz rəqabətin olmaması üçün istehsalçılar da səylərini əlaqələndirməlidir. Həm istehsalçıla-

⇨ 5

# Bakıda "Çoxqütblü dünyaya doğru" mövzusunda IV Qlobal Forum keçirilib




4 ⇦ rın, həm də istehlakçıların öz məqsədləri var.

"Cənub Qaz Dəhlizi" layihəsində biz istehsalçı, istehlakçı və tranzit dövlətlər arasında balans yaratmağa nail olmuşuq. Yəni, burada uduzan tərəf yoxdur və bu səbəbdən o, olduqca uğurla inkişaf edir. Bu qədər iştirakçıların olduğu, qısa bir zamanda və neftin qiymətinin aşağı olduğu bir vaxtda milyardlar tələb edən belə bir nəhəng layihənin həyata keçirilməsi böyük çağırışdır. Enerji təhlükəsizliyi şübhəsiz ki, siyasi gündəlikdə əsas yer tutacaq. Hesab edirəm, "Cənub" qaz dəhlizi vasitəsilə göstərdiyimiz nümunə nümayiş etdirir ki, enerji ilə siyasəti ayıranda uğur əldə oluna bilər.

Bu il Azərbaycanda "Multikulturalizm ili"dir. Müxtəlif etnik köklərə, dinlərə malik insanlar əsrlər boyu Azərbaycanda sülh, əmin-amanlıq şəraitində yaşamışlar və biz bununla fəxr edirik. Fərəhlənirik ki, müstəqillik illərində bu müsbət meyil daha da güclənmişdir. Multikulturalizm və dini dözümlülük Azərbaycanda dövlət siyasətidir. Eyni zamanda, bu, cəmiyyətdə olan əhval-ruhiyyənin təcəssümüdür. Bu isə çox vacibdir ki, həmin sahədə dövlət siyasəti və ümumi ab-hava bir-birindən fərqlənmir.

2008-ci ildə biz "Bakı prosesi"nə start verdik və ilk dəfə İslam Əməkdaşlıq Təşkilatına üzv olan dövlətlərin mədəniyyət nazirlərini Avropa Şurasına üzv olan dövlətlərin mədəniyyət nazirlərinin Bakıda keçirilən toplantısına dəvət etdik. "Bakı prosesi" artıq bir reallıqdır. Biz Azərbaycanda multikulturalizm dəyərlərini təşviq edən çoxsaylı beynəlxalq tədbirlər keçirmişik. Dünya dini liderlərinin zirvə görüşü, bir neçə dəfə Mədəniyyətlərarası Dialoq Forumu və Beynəlxalq Humanitar Forum təşkil etmişik. Təqribən bir aydan sonra biz BMT-nin təşkilatçılığı ilə Azərbaycanda Sivilizasiyalar Alyansının 7-ci toplantısını keçirəcəyik.

Azərbaycanın bu sahədəki təcrübəsi aparıcı beynəlxalq təşkilatlar və beynəlxalq birlik tərəfindən yüksək qiymətləndirilir. Bu, multikulturalizmin yaşadığını, onun gələcəyinin olmasını sübut edir, sadəcə siyasətçilər, ictimai rəyə təsir etmək iqtidarında olanlar, o cümlədən media nümayəndələri daha məsuliyyətli olmalıdırlar. Hesab edirəm ki, bu məsələdə medianın rolu daha müsbət olmalıdır. Təəssüf ki, bir çox hallarda biz xəbərlərdə qarşıdurma, qaçqın böhranı və bunlarla bağlı kadrlar görürük.

Bu yanaşma yalnız təcridolunmaya gətirir. Biz buna imkan verə bilmərik. Çünki qeyd etdiyim kimi, biz bir-birimizlə bağlıyıq və eyni planetdə yaşayırıq. Artıq şahid olduğumuz kimi, Avropa ilə Yaxın Şərq arasındakı məsafə o qədər də böyük deyil. Yəni, məsafə insanların sığınacaq tapmaq və öz ailələrini xilas etmək naminə oralara üz tutmağın qarşısını almır. Odur ki, multikulturalizmin müsbət nümunələri üzərində dayanmaqla, bu dəyərlərin təşviqi hamımıza yardımçı olar. Çünki gələcəkdə heç bir ölkə və millət təcrid olunmuş vəziyyətdə yaşaya bilməz. Biz bir-birimizə bağlıyıq. Dünya ölkələrinin mütləq əksəriyyətinin əhalisi çoxmillətli və çoxdinlidir. Biz bununla fəxr etməliyik.

Ötən ay biz müsəlman dünyasının ən müqəddəs məkanlarından olan İmamzadə Dini-Tarixi Kompleksinin yenidənqurma və bərpadan sonra açılışında iştirak etdik. Yeri gəlmişkən, bu kompleks Gəncədə, Nizami Gəncəvinin vətənində yerləşir. Azərbaycan xalqı bu abidəni VIII əsrdən bəri qoruyur. Ərazidə yeni məscid də inşa edilmişdir və mən Azərbaycanın müxtəlif bölgələrindən olan insanları ora dəvət etmişdim. Orada mənimlə yanaşı çıxış edənlərin arasında Azərbaycanın müxtəlif dini icmalarının rəhbərləri olmuşlar – Azərbaycan müsəlmanlarının, Azərbaycanın Rus Pravoslav kilsəsinin, yəhudi icmasının və Azərbaycanın Katolik kilsəsinin rəhbərləri. Onlar bu tədbirdə yalnız iştirak etməmiş, həm çıxış etmiş və həm də yeni inşa edilmiş məscidi ziyarət etmişlər. Bu işlər bizim ölkədə belə qurulub. Bu, bizim cəmiyyətimizə, xalqımıza və dünyaya olan mesajımızdır.

Bir neçə ay bundan öncə Azərbaycanın ən böyük məscidində sünni və şiə müsəlmanlar bir yerdə namaz qılmışlar və bunu vəhdət namazı adlandırmışlar. Bu da bir daha real vəziyyəti əks etdirir. Burada nə müsəlman icması daxilində, nə də, ümumiyyətlə, cəmiyyətimizdə fərq qoyulmur. Bu, Azərbaycan reallığıdır, bizim ən böyük sərvətlərimizdəndir və uğurlu inkişafımızın zəmanətidir. Çünki bu konsensus, bu birlik olmadan biz uğur əldə edə bilmərik. Biz daha da böyük nailiyyətlər əldə etməkdə, ölkəmizi müasirləşdirməkdə davam etmək istəyirik. Biz buna yalnız dostluq və multikulturalizm kimi birgə dəyərlərə əsaslanaraq nail ola bilərik.

Ötən il Azərbaycan ilk Avropa Oyunlarına, 2012-ci ildə "Eurovision" mahnı müsabiqəsinə ev sahibliyi etmişdir. Bakı İslam Mədəniyyəti Paytaxtı elan edilmişdir və gələn il biz İslam Həmrəylik Oyunlarını təşkil edəcəyik. Azərbaycan Avropa Şurasının və eyni zamanda, İslam Əməkdaşlıq Təşkilatının üzvüdür. Bu, mədəniyyətlər, ənənələr, dinlər arasında körpüdür və bu, bizim məsuliyyətimizdir. Biz bu rolu ilk öncə öz ölkəmizin uğurlu gələcəyi və regionda sabit proqnozlaşdırıla bilən vəziyyətin yaradılması naminə oynayırıq.

Əminəm ki, proqramın vacib mövzuları üzrə müzakirələr regionumuzda və dünyada müsbət inkişafa böyük töhfə olacaqdır. Forumun işinə uğurlar diləyirəm. Təşəkkür edirəm.

* * *

Sonra Bolqarıstan Prezidenti Rosen Plevneliyev çıxış edərək müasir dünyada sülh və azadlığın sınağa çəkildiyini, mövcud münaqişələrin dünya üçün qlobal təhlükə yaratdığını deyib. Dünyanın təhlükəsizlik sisteminin artıq dəyişdiyini bildirən Bolqarıstan Prezidenti azad cəmiyyətlərin yaradılması ideyasının zərurətə çevrildiyini vurğulayıb. Çıxışında Avropada mövcud olan miqrant böhranına diqqəti cəlb edən, hər bir dövlətin ərazi bütövlüyünün, sərhədlərinin bölünməzliyinin mühüm prinsip olduğunu deyən Bolqarıstan dövlətinin başçısı bildirib ki, müqavimət qabiliyyətli dünyanın yaradılması, yeni dünya nizamının formalaşdırılması artıq zərurətdir.

Albaniya Prezidenti Buyar Nişani bu Foruma dəvət edildiyinə görə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin rəhbərliyinə minnətdarlığını bildirib. Son 25 ildə dünyada böyük dəyişikliklərin getdiyini deyən Albaniya dövlətinin başçısı indi bəşəriyyətin yeni çağırışlarla üz-üzə olduğunu, dünyanın bütün zamanlardan daha çox indi dialoqa ehtiyac duyduğunu vurğulayıb. Həmin dialoqun baş tutması üçün bu Forumun əhəmiyyətini qeyd edən Buyar Nişani Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə fəaliyyətində uğurlar arzulayıb.

Daha sonra Gürcüstan Prezidenti Giorgi Marqvelaşvili çıxış edərək yenidən Bakıda olmaqdan məmnunluğunu bildirib. Ölkəsinin də müstəqillik illərində bir çox çətinliklərlə üzləşdiyini deyən Prezident Giorgi Marqvelaşvili Gürcüstanın qlobal təhlükəsizliyə töhfə verdiyini diqqətə çatdırıb.

Son illərdə Gürcüstan və Azərbaycanın bir çox iri layihələrə imza atdığını vurğulayan dövlət başçısı bütün bunların yeni dostların qazanılmasına xidmət etdiyini bildirib. Gürcüstan Prezidenti Şərq ilə Qərb arasında önəmli komponentə çevrilən regionun gələcəyi üçün bu layihələrin əhəmiyyətini diqqətə çatdırıb.

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Devid Kemeronun Forum iştirakçılarına məktubu oxunub. Məktubu Britaniyanın Azərbaycandakı səfiri İrfan Siddiq oxuyub.

Məktubda Forumun uğurlu alınması və orada əhəmiyyətli mövzuların müzakirəsi baxımından Prezident İlham Əliyevi təbrik edən Devid Kemeron ölkəmiz ilə Birləşmiş Krallıq arasında hərtərəfli əlaqələrin qurulduğunu və inkişaf etdiyini vurğulayıb.

Kanadanın Baş naziri Castin Trudeau videomüraciətində Bakı Forumunun işinə uğurlar arzulayıb. Bu Forumun millətlər arasında anlaşmanın əldə edilməsində əhəmiyyətini vurğulayıb.

UNESCO-nun baş direktoru İrina Bokova da videomüraciətində Prezident İlham Əliyevə və Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya Forumun keçirilməsindəki dəstəklərinə görə minnətdarlıq edib. O, mədəniyyətlərarası dialoqun indi beynəlxalq aləm üçün vacib əhəmiyyət daşıdığını bildirib, dünyanın gələcəyi baxımından bu Forumda müzakirə olunan məsələlərin əhəmiyyətini vurğulayıb.

Latviyanın sabiq Prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri Vayra-Vike Freyberqa artıq dördüncü dəfə keçirilən Forumun dünyanın qarşılaşdığı problemlərin nizama salınması üçün yeni orijinal həll yollarının tapılmasındakı rolundan danışıb. Nizami Gəncəvinin yaradıcılığında dialoq mühitinin mövcud olduğunu deyən Vayra-Vike Freyberqa bildirib ki, hazırda dünyanı narahat edən problemlərin həllində ən vacib məqam dialoqdur. O, ideyalar mübadiləsinin həyata keçirilməsi üçün bu Forumun müstəsna əhəmiyyətə malik olduğunu bildirib.

Sonra birgə foto çəkdirilib.

# "Bizim gücümüz birliyimizdədir" mövzusunda konfrans keçirilib




Martın 2-də Lənkəran şəhərindəki Heydər Əliyev Mərkəzində "Multikulturalizm ili" çərçivəsində Ailə, Qadın və Uşaq Problemləri Komitəsinin, Dini Qurumlarla İş üzrə Dövlət komitəsinin və Lənkəran Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Bizim gücümüz birliyimizdədir" mövzusunda tədbir keçirilib.

Tədbirdə Astara, Lənkəran, Lerik, Masallı, Yardımlı və Cəlilabad rayonlarında yaşayan milli azlıqların və etnik qrupların nümayəndələri, Ailə, Qadın və Uşaq Problemləri, Dini Qurumlarla İş üzrə Dövlət komitələrinin rəhbər işçiləri, beynəlxalq təşkilatların əməkdaşları, cənub bölgəsində fəaliyyət göstərən dini icmaların və Lənkəran rayon ictimaiyyətinin təmsilçiləri iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək xatirəsini ehtiramla yad edib, Heydər Əliyev Mərkəzinin foyesində Xocalı soyqırımı dəhşətlərini əks etdirən rəsm sərgisi ilə tanış olublar.

Tədbirdə çıxış edən Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov multikulturalizmin, tolerantlığın Azərbaycan xalqının həyat tərzinə çevrildiyini diqqətə çatdırıb. T.Qaraşov tarixən Lənkəranda müxtəlif xalqların nümayəndələrinin dostluq şəraitində yaşadıqlarını vurğulayaraq, ictimai-siyasi sabitliyin hökm sürdüyü ölkəmizdə tolerantlığın bundan sonra da davam edəcəyinə əminliyini bildirib.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova çıxış edərək deyib ki, multikulturalizm Azərbaycanda uzun illərdən bəri ayrı-ayrı xalqların nümayəndələri arasında sülh, dostluq, qarşılıqlı anlaşma və əməkdaşlıq zəminində təşəkkül tapıb.

Hər bir xalqın, millətin mövcudluğunun onun ana dilinə, adət-ənənələrinə, mədəniyyətinə bağlılığından asılı olduğunu vurğulayan H.Hüseynova bildirib ki, Azərbaycan xalqının çox gözəl və zəngin ailə ənənələri var. Bu ailə ənənələri sədaqət, qarşılıqlı məhəbbət, valideynə hörmət, tolerantlıq kimi xüsusiyyətləri özündə birləşdirir.

Qeyd olunub ki, ölkəmizdə yüzdən çox millətin və etnik qrupun, azsaylı xalqların nümayəndələri yaşayır. 2008-ci ildən başlayaraq Komitənin keçirdiyi "Ailə bayramı"nda müxtəlif xalqların, millətlərin nümayəndələrindən olan ailələr öz milli-mədəni dəyərlərini, adət-ənənələrini nümayiş etdirirlər. Respublikamız müstəqilliyini bərpa etdikdən sonra Ümummilli Lider Heydər Əliyevin Azərbaycançılıq konsepsiyasına uyğun olaraq ölkəmizdə dövlət-din münasibətlərinin inkişafı üçün əlverişli şərait yaradılıb. Ulu Öndərin bu müdrik siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizdə tolerantlıq dövlət siyasətinin tərkib hissəsidir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxış edərək deyib: "Bizi birləşdirən amillər çoxdur. Bu birlik bizim nailiyyətimizdir, onu qoruyub saxlamaq hər birimizin vətəndaşlıq borcudur. Azərbaycanda tarix boyu müxtəlif mədəniyyətlərin, dinlərin, millətlərin, etnik qrupların nümayəndələri qarşılıqlı hörmət, birgəyaşayış şəraitində bir ailə kimi yaşayıb və bu ənənə hazırda da yüksək səviyyədə davam edir. Çoxmillətli, çoxkonfessiyalı ölkəmizdə bu gün dini etiqad azadlığı tam şəkildə təmin edilir və bütün dinlərin, xalqların, etnik qrupların nümayəndələri eyni hüquqlara malikdirlər. Xalqımızın gen yaddaşından süzülüb gələn dözümlülük, multikultural ənənə bizim üçün normal yaşayış, həyat tərzidir".

Milli Məclisin deputatı Elmira Axundova çıxışında Azərbaycanda rusdilli xalqlara göstərilən diqqət və qayğıdan söhbət açaraq, Ümummilli Lider Heydər Əliyevin yenidən respublika rəhbərliyinə qayıdışından sonra vaxtilə ölkəmizdən köçüb gedənlərin geri qayıtmağa başladıqlarını xatırladıb.

Ulu Öndərin millətlərarası münasibətlər kimi həssas bir sahədə gərginliyin qarşısının alınmasında xidmətlərini diqqətə çatdıran E.Axundova qeyd edib ki, Ümummilli Lider Heydər Əliyev tərəfindən bizə miras qalan Azərbaycançılıq ideologiyasını, ölkəmizdə yaşayan xalqların hüquq bərabərliyini, bu mənəvi sərvətimizi göz bəbəyi kimi qorumalı və inkişaf etdirməliyik. Çünki gücümüz birliyimizdədir.

Sonra Milli Məclisin deputatları Hadı Rəcəbli, Cavanşir Paşazadə, Avropa Şurasının Azərbaycandakı ofisinin rəhbəri Draqana Filipoviç, BMT-nin İnkişaf Proqramının ölkəmizdəki rezident nümayəndəsinin müavini xanım Nato Alxazişvili, Qafqaz Müsəlmanları İdarəsinin cənub bölgəsi üzrə nümayəndəsi Qəni Axundzadə, Lənkərandakı rus icmasının üzvü Yelena Sverçkova, Lənkəranda yaşayan talışların nümayəndəsi Kamal Hüseynov çıxış edərək, Azərbaycanda hökm sürən tolerantlığın bütün dünyaya nümunə olduğunu bildiriblər.

Tədbir Lənkəran şəhərindəki Gənclər Mərkəzində davam etdirilib.

# Azərbaycan multikulturalizmi bir model kimi böyük maraq doğurur

**Braziliya Milli Konqresi Federal Senatının elm, texnologiya, innovasiya, kommunikasiya və informatika komitəsinin sədri, Braziliya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Kristovam Buarke Azərbaycan multikulturalizminin bir model kimi böyük maraq doğurduğunu, Bakının sivilizasiyaların birləşdiyi bir məkana çevrildiyini bildirib.**



O, həmçinin Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi (BBMM) ilə əməkdaşlıq çərçivəsində "Azərbaycan multikulturalizmi" fənninin Braziliyada da tədris olunmasının və Mərkəzin filialının bu ölkədə açılmasının önəmini qeyd edib.

Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri Kamal Abdullayevin Kristovam Buarke ilə görüşündə Braziliyanın ölkəmizdəki səfiri Santiaqo Alkazar, deputat Asim Mollazadə, Milli Məclis Aparatının beynəlxalq münasibətlər şöbəsinin böyük məsləhətçisi Lalə Çələbizadə də iştirak ediblər.

Görüşdə Dövlət müşaviri Kamal Abdullayev Azərbaycanda həyat tərzi olan multikulturalizmin dövlət siyasətinin prioritet istiqaməti olduğunu və örnək model kimi Prezident İlham Əliyevin siyasi iradəsi və rəhbərliyi ilə dünyaya ixrac edildiyini vurğulayıb.

Qonaqlara Mərkəzin həyata keçirdiyi mühüm layihələr haqqında ətraflı məlumat verən BBMM-in icraçı direktoru Azad Məmmədov bildirib ki, hazırda Portuqaliyadan İndoneziyayadək dünyanın 13 məşhur universitetində "Azərbaycan multikulturalizmi" fənni tədris olunur.

BBMM-in müşaviri, professor Aytən Qəhrəman bu yaxınlarda Mərkəzin Almaniyanın Drezden və Portuqaliyanın Lissabon şəhərlərində filial və nümayəndəliklərinin açıldığını, bu il ərzində isə İtaliyada, İsveçdə, Rusiyada, Gürcüstanda, Belçikada və Qazaxıstanda da filial və nümayəndəliklərin açılacağını qonaqların diqqətinə çatdırıb.

# DQİDK sədrinin birinci müavini Şamaxı və Qobustan dindarları ilə görüşüb




Martın 9-da Qobustan rayon Heydər Əliyev Mərkəzində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşəbbüsü, Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə "Dini radikalizmlə mübarizə sahəsində dini icmaların fəaliyyətinin təşkili" mövzusunda tədbir keçirilib. Tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı, Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) səlahiyyətli nümayəndəsi Mərhəmət Mustafayev, rayon hüquq-mühafizə orqanlarının rəhbərləri, ziyalılar, dini icma sədrləri, imam və axundlar iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan RİH-in başçısı Adil Məmmədov rayondakı dini durum haqqında ətraflı məlumat verərək, bu cür tədbirlərin əhəmiyyətindən danışıb. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı Şirvan bölgəsinin yetişdirdiyi görkəmli elm xadimləri, ədib və mütəfəkkirlər, xüsusilə din xadimləri barəsində danışaraq, gənclərimizin bu istiqamətdə tərbiyəsindən söhbət açıb. S.Salahlı çıxışında dini radikalizm və onun fəsadları, həmçinin radikalizmlə mübarizə sahəsində dini icmaların fəaliyyətinin tənzimlənməsi barədə tədbir iştirakçılarına geniş məlumat verib.

Tədbirdə, həmçinin QMİ-nin səlahiyyətli nümayəndəsi Mərhəmət Mustafayev, Rayon Təhsil Şöbəsinin məsul əməkdaşı Ənvər Qayıbov, Abşeron Rayon Ağsaqqallar Şurasının sədri Şıxbala Bayramov, Hilmilli kənd Molokan ruhani-xristian dini icmasının sədri Yekaterina Tsapleva çıxış ediblər.

* * *

Həmin gün Şamaxı rayonunun Adnalı kənd məscidində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlının, Şamaxı Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Qasım Qasımov, dindarların və rayon hüquq-mühafizə orqanlarının rəhbərlərinin iştirakı ilə tədbir keçirilib.

Tədbirdə dövlət-din münasibətləri, radikalizm və onunla mübarizədə dindarların vəzifələri barədə çıxışlar olub.

# “Ulu Öndər Heydər Əliyevin Azərbaycançılıq məfkurəsi əsasında milli-mənəvi dəyərlərin qorunub saxlanılması və inkişafının istiqamətləri” mövzusunda seminar keçirilib

***Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin birgə Tədbirlər Planına əsasən Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsində “Ulu Öndər Heydər Əliyevin Azərbaycançılıq məfkurəsi əsasında milli-mənəvi dəyərlərin qorunub saxlanılması və inkişafının istiqamətləri” mövzusunda seminar keçirilib.***

Seminar başlamazdan öncə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, azadlığı uğrunda şəhid olanların xatirəsi hörmət və ehtiramla yad edilib.

Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsi rəisinin müavini polkovnik Abdulla Qurbani Müdafiə Nazirliyi ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin 2016-cı – Multikulturalizm ili üçün birgə Tədbirlər Planının Silahlı Qüvvələrdə uğurla həyata keçirildiyini və bu seminarın da həmin tədbirlərdən biri olduğunu bildirib.

Qeyd olunub ki, milli həmrəyliyi, bütövlüyü, birliyi təmin edən, milli təəssübkeşlik, vətənpərvərlik hisslərini daha da gücləndirən Ulu Öndər Heydər Əliyevin Azərbaycançılıq məfkurəsi bu gün Silahlı Qüvvələrdə də prioritetdir və bu istiqamətdə ardıcıl, məqsədyönlü iş aparılır.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmayılovun mövzu ilə bağlı məruzəsi böyük maraqla dinlənilib. Müasir, müstəqil Azərbaycan Respublikasının qurucusu Heydər Əliyevin müəllifi olduğu Azərbaycançılıq ideologiyası bütün dünya azərbaycanlılarının milli istinad mənbəyinə çevrildiyi fikrini önə çəkən məruzəçi qeyd edib ki, hələ keçən əsrin 70-ci illərindən başlayaraq kommunist ideologiyasının hökm sürdüyü bir dövrdə Ulu Öndərimizin uzaqgörənliklə milli zabit kadrlarının yetişdirilməsi məqsədini güdən indiki Cəmşid Naxçıvanski adına Hərbi Liseyi yaratması, Azərbaycan dilinin o vaxtlar Azərbaycan SSR-in Konstitusiyasında dövlət dili kimi təsbit edilməsinə nail olması çoxlarının xəyalına belə gəlməzdi və bunlar gələcək nəsillər üçün ən böyük, əvəzolunmaz töhfələr idi.



Seminarda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Ulu Öndər Heydər Əliyevin Azərbaycançılıq məfkurəsinin bu gün də xalqımızı və dövlətimizi daha xoşbəxt gələcəyə aparmasından, bu məfkurə əsasında milli-mənəvi dəyərlərimizin qorunmasından və möhtərəm Prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyevin bu məfkurəni uğurla davam və inkişaf etdirməsindən geniş söhbət açıb. Komitə sədri tolerantlığın Azərbaycan xalqının həyat tərzinə çevrildiyini, milli-mənəvi dəyərlərə, eləcə də onun ayrılmaz tərkib hissəsi olan dini dəyərlərə münasibətdə respublikamızın dünya ölkələri üçün örnək olduğunu vurğulayıb.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamına əsasən Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sifarişi ilə çap olunmuş Qurani-Kərimin tərcüməsi olan 1000 nüsxə kitab və Heydər məscidinin təsviri olan tablo Müdafiə Nazirliyinə hədiyyə edilib.

“Azərbaycan” jurnalının baş redaktoru, əməkdar incəsənət xadimi İntiqam Qasımzadə seminarda iştirakından böyük qürur duyduğunu, çox şeylər öyrəndiyini dilə gətirib və jurnalın yeni nömrəsindən 50 nüsxə tədbir iştirakçılarına paylayıb.

Silahlı Qüvvələr Hərbi Akademiyası Milli Təhlükəsizlik və Humanitar Elmlər Kafedrasının rəisi polkovnik Bəbir Quliyev, Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin zabiti polkovnik-leytenant Fərhad Məmmədov və başqaları çıxış edərək mövzu ilə bağlı fikir və təkliflərini bildiriblər.

Müdafiə nazirinin şəxsi heyət üzrə müavini – Şəxsi Heyət Baş İdarəsinin rəisi general-leytenant Kərim Vəliyev seminara yekun vurub və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə birgə tədbirlərin bundan sonra da davam edəcəyinə əminliyini bildirib.

# “İslam dini və müasir gənclik” mövzusunda tədbir keçirilib

**Martın 11-də Azərbaycan Universitetində “İslam dini və müasir gənclik” mövzusunda tədbir keçirilib. Tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, Yeni Azərbaycan Partiyasının (YAP) İcra katibinin müavini Mübariz Qurbanlı, Universitetin rektoru, professor Fərid Əhmədov, Universitetin tələbə və müəllim heyəti, ziyalılar iştirak ediblər.**

Giriş sözü ilə çıxış edən professor Fərid Əhmədov müasir gəncliyimizin milli-mənəvi dəyərlər ruhunda tərbiyə olunmasının vacibliyindən danışıb. O bildirib ki, İslam dininin gələcəyi üçün gənclərin imanlı böyüməsi vacibdir: “İslam dini gəncliyə və gənclərin püxtələşməsinə çox böyük diqqət yetirir. Ona görə də cəmiyyətimiz gənclərin düzgün dini maarifləndirilməsinə biganə qalmamalıdır. Bu sahədə bölgələrdə, o cümlədən də ali təhsil ocaqlarında dini biliyin artırılması istiqamətində tədbirlər görülməlidir”.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxışında ümumbəşəri dəyərlərə münasibətdə zəngin təcrübəyə malik Azərbaycanda İslamın tarixi, milli-mənəvi dəyərlərimizdə yeri, bu dəyərlərin yad təsirlərdən qorunması ilə bağlı məsələlərdən bəhs edib. O bildirib ki, ölkəmizdə tarixən



tolerantlıq mühiti, dinlər arasında qarşılıqlı hörmət və etimada əsaslanan əməkdaşlıq münasibətin hökm sürür: “Bu gün də dövlət-din münasibətləri zəngin milli-tarixi ənənəyə əsaslanaraq beynəlxalq hüquqi normalarla tənzimlənir. Bununla bağlı Ümummilli Lider Heydər Əliyevin həyata keçirdiyi siyasət cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir və ölkəmizdə dinlərarası münasibətlər fonunda hər kəsin dini etiqad azadlığı qorunur. Azərbaycan İslam siviliziyasının tərkib hissəsi olmaqla yanaşı, həmçinin dini xurafata və geriliyə qarşı mübarizə aparan ölkədir. Bu baxımdan da Azərbaycanın İslam maarifçiliyinin inkişafında rolu danılmazdır”.

Dövlət Komitəsinin sədri qeyd edib ki, bu gün dünyada bəzi qüvvələr İslamı siyasiləşdirərək daxildə qarışıqlıq yaratmaqla onu gözdən salmağa çalışır, terrorla əlaqələndirmək istəyirlər: “Avropada müxtəlif qruplar meydana gəlib ki, onlar İslam əleyhinə çağırışlar edirlər. Bu kimi halların qarşısını almaq üçün dini maarifçilik böyük əhəmiyyət daşıyır. İslam maarifçiyində müsəlman ölkələri arasında koordinasiyanın yaradılmasına ehtiyac var. Buraya elm, tədris mərkəzlərini cəlb etmək doğru olar. Azərbaycanda İslamşünaslıq elmi yeni inkişaf mərhələsinə daxil olduğu üçün biz milli-mənəvi dəyərlərimizi qorumalı, eyni zamanda milli kadrlarımızı yetişdirməliyik. Hesab edirəm ki, İslam dəyərlərinin təbliğində Azərbaycan alimlərinin, islamşünasların tədqiqatlarına ehtiyac var”.

Azərbaycan İslam dünyasının bir parçası olduğunu deyən Mübariz Qurbanlı bildirib ki, ölkə əhalisinin 96 % müsəlmandır, qalan hissəsi isə müxtəlif dinlərin nümayəndələridir. “Yəni Azərbaycanda aparıcı din İslam olsa da, başqa dinlərə də eyni hörmətlə yanaşılır. Dünyəvi dövlət olduğumuz üçün din dövlətin işlərinə birbaşa müdaxilə edə bilmir. Ölkələr var ki, dini qaydalar dövlətin idarəçiliyində birbaşa rola malikdir və orada din tam şəkildə nəzərə alınır. Amma Azərbaycanda bu, fərqlidir. Dövlət-din münasibətlərinin tənzimlənməsi Azərbaycan Respublikasının Konstitusiyasının müvafiq müddəalarında öz əksini tapır. Hesab edirəm ki, gənclərimiz bununla yaxından tanış olmalı, dövlət-din münasibətləri haqqında geniş məlumata malik olmalıdırlar”.

Diskussiya şəraitində baş tutan tədbirin sonunda Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı mövzu ilə əlaqədar tələbələrin suallarını cavablandırıb.

## Dini maarifləndirmə layihəsi çərçivəsində

Dövlətimiz müxtəlif dini inanclara sahib vətəndaşlarımızın arasında mövcud tolerantlığın gücləndirilməsi, milli-mənəvi dəyərlərimizin qorunması və inkişaf etdirilməsinə hər zaman yüksək diqqət və qayğı göstərmişdir. Azərbaycan dövlətinin milli-mənəvi dəyərlərimizin, ümumilikdə dinimizin təbliği istiqamətində atdığı addımlardan biri də ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədilə dövlət başçısı cənab İlham Əliyevin 27 noyabr 2014-cü il tarixli Sərəncamıdır. Həmin ilin dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinə ayrılmış 2,5 milyon manat vəsait mərhələli şəkildə xüsusi layihələr çərçivəsində dini icmalara paylanılır. Hazırda layihələr çərçivəsində bölgələrdə tədbirlər davam etdirilir. Bu qəbildən tədbirlər Göyçay şəhər "Əbülfəzlil Abbas" məscidi, Qəbələ şəhər dindarlarının məscidi, Balakən şəhəri "Mərkəzi Cümə Məscidi", Bakı şəhəri Xətai rayonu "İmam Hüseyn" məscidi, Bakı şəhəri Xəzər rayonu Türkan qəsəbəsi "İmam Hüseyn" məscidi, Sabunçu rayonu Sabunçu qəsəbəsi Cümə məscidi, Xaçmaz şəhəri "Təzə şəhər" məscidi, Şamaxı şəhər "Cümə" məscidi, Şəmkir "Cümə" məscidi, Qusar rayonu Avaran kənd məscidi, Bakı şəhəri Sabunçu rayonu Bakıxanov qəsəbəsi "İmam Rza" məscidi, Sumqayıt şəhəri "Cümə" məscidi, Qazax rayonu "Cümə" məscidi, Lerik rayonu Gürdəsər kənd məscidi, Ağdam rayonu Xındırıstan kənd məscidi, Goranboy rayonu Səfikürd və Tatarlı kənd məscidi, Sabirabad rayonu Bulaqlı kənd məscidi, Şirvan şəhəri "Şəhər məscidi", Ağdam rayonu Zəngişalı kənd məscidi dini icmaları tərəfindən həyata keçirilib.

"Müasir dövrdə İslam dünyasında dini ekstremizmin yaranma səbəbləri və onun fəsadları", "Dini radikalizm və gətirdiyi fəsadlar", "Cəmiyyətimizin radikal təsirlərdən qorunması", "Radikalizmlə mübarizədə ictimai qınaq faktoru", "İslamda ailə dəyərləri", "Ənənəvi İslam dini Azərbaycan mədəniyyətinin ayrılmaz hissəsidir", "Milli-mənəvi dəyərlərin təbliğində gənclərin rolu", "İslam olduğu kimi", "Zərərli vərdişlərin yaratdığı problemlər", "İslam qardaşlıq dinidir", "Vətən anlayışı və milli-mənəvi özünüdərk", "Dini radikalizmə qarşı mübarizə və milli-mənəvi dəyərlərimizin qorunması", "Dini fanatizm və ekstremizm: multikultural cəmiyyət üçün təhlükə", "Milli-mənəvi dəyərlərimizə sahib çıxaq" mövzularında keçirilmiş tədbirlərdə Dövlət komitəsinin əməkdaşları, din xadimləri, ağsaqqallar, ziyalılar, gənclər və dindarlar iştirak ediblər.

Çıxışlarda dövlət-din münasibətləri, mövcud dini durum, multikulturalizm ənənəsi, dövlət başçısı İlham Əliyevin 2016-cı ili "Multikulturalizm ili" elan etməsinin əhəmiyyəti barədə danışılıb. Dini maarifləndirmə sahəsində görülən işlərin əhəmiyyətinə toxunulan tədbirlərdə dövlət başçısının bu sahəyə qayğısı xüsusilə qeyd edilib. Həmçinin, dini radikalizmin tarixi köklərindən və onun ictimai münasibətlərə, milli-mənəvi dəyərlərimizə vurduğu zərərlərdən bəhs olunub. Bununla yanaşı, tədbirlərdə zərərli dini cərəyanların ictimai-sosial həyatımıza mənfi təsirləri, ailə institutuna vurduğu zərbələr haqqında geniş məlumat verilib. Tədbirdə çıxış edənlər bu cür tədbirlərin keçirilməsini dəstəklədiyi üçün Prezident İlham Əliyevə təşəkkürlərini bildiriblər.

Sonda tədbir iştirakçılarını maraqlandıran məsələlərə aydınlıq gətirilib.

# Səyyad Salahlı: "Radikal dini qrupların fəaliyyəti günü-gündən zəifləyir"

## *Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlının Teleqraf.com-a müsahibəsi:*

**- Ölkədə dini durumu necə qiymətləndirirsiniz?**

- Hazırda ölkədə dini durum sabitdir, proseslərə nəzarət edirik. "Dini etiqad azadlığı haqqında" Qanun və Azərbaycan Respublikasının Konstitusiyasından irəli gələn vəzifələri uğurla yerinə yetiririk. Cənab Prezident İlham Əliyevin ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədilə dini icmalara maliyyə yardımı göstərmək üçün 2014-cü il noyabrın 27-də imzaladığı Sərəncama əsasən bu günə kimi Dövlət Komitəsi tərəfindən 114 dini icmaya maliyyə yardımı ayrılıb ki, bunlardan 19-u qeyri-islam, 95-i isə İslam dini icmasıdır. Dini icmalar ayrılmış vəsait hesabına dini maarifləndirmə və milli-mənəvi dəyərlərimizin təbliği istiqamətində yerlərdə tədbirlər keçirməkdə davam edirlər. Respublikanın bütün bölgələrini və paytaxtı əhatə edən maarifləndirmə layihələri uğurla icra olunur. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ümumilikdə ölkəmizdə dini stabilliyin qorunması, istər İslam, istərsə də qeyri-islam dinlərinin sərbəst fəaliyyət göstərmələri üçün əlindən gələni edir.



**- Komitə dini icmalara böyük məbləğdə maliyyə vəsaiti ayırır. Sonradan bu maliyyə vəsaitlərinin xərclənməsinə nəzarət edilirmi?**

- Əlbəttə, bu istiqamətdə nəzarət mexanizmi mövcuddur. Ayrılan maliyyə vəsaitinə dair rəsmi sənədlərin dini icma rəhbərlərinə təqdim edilməsindən bu icmaların həmin maliyyə vəsaiti hesabına icra etdikləri layihələrə kimi bütün məlumatlar tam əhatəli şəkildə Dövlət Komitəsinin rəsmi internet saytı və KİV vasitəsilə ictimaiyyətə təqdim edilir. Rəsmi sənədləşmə və layihələrin sərf etdikləri maliyyə vəsaiti Maliyyə şöbəsinin nəzarətindədir. Dini icmalar bütün xərclər barədə rəsmi sənədlərlə hesabat təqdim edirlər.

**- Qanuna görə, dini ədəbiyyat və nəşrlər Komitənin icazəsindən sonra nəşr edilə, belə xarakterli ədəbiyyat ölkəyə gətirilə bilər. Bu proses necə həyata keçirilir?**

- Təbii ki, bütün dini məzmunlu ədəbiyyatların nəşr edilməsi və ölkəyə gətirilməsinə dair icazənin verilməsi Dövlət Komitəsinin səlahiyyətindədir.Bu proses Komitənin Dinşünaslıq ekspertizası şöbəsi tərəfindən həyata keçirilir. Adıçəkilən şöbənin fəaliyyətinin əsasını ölkəyə idxal olunan və ölkədə nəşr olunan dini təyinatlı ədəbiyyatın ekspertizasının həyata keçirilməsi təşkil edir. Dini ədavət, hər hansı bir dinin qatı təbliği, din mənsublarının təhqiri ilə bağlı materiallar yoxdursa, bu zaman həmin ədəbiyyatın ölkəyə gətirilməsi və istifadəsinə icazə verilir.

**- Komitənin sədri Mübariz Qurbanlı, eləcə də Siz mütəmadi olaraq rayonlara səfər edir, görüşlər keçirirsiniz. Bu görüşlər nəyə hesablanıb?**

- Bu görüşlər dini maarifçiliyin təbliğinə, milli-mənəvi dəyərlərin inkişafına, dinimizin əsaslarının möhkəmləndirilməsinə və dindarlarla əlaqələrin intensivləşdirilməsinə, habelə orada meydana çıxan problemlərin həllinə yönəlir.

**- Azərbaycanda mövhumatçılıq nə dərəcədə dərindir?**

- Azərbaycanda mövhumatçılıq güclü deyil. İnsanlarımız dinə, din xadimlərinə böyük hörmətlə yanaşmaqla bərabər dini olduğu kimi öyrənməyə, qəbul etməyə və onun ən yaxşı tərəflərini götürməyə çalışırlar.

**- Məscidlərində dini ayin və mərasimlərə rəhbərliyi yalnız yerli din xadimləri həyata keçirə bilər, xarici ölkələrdə dini təhsil alan şəxslərin buna rəhbərlik etməsi qadağandır. Bəs ölkəmizdə din xadimlərinin yetişdirilməsi potensialı varmı?**

- Azərbaycanın kifayət qədər imkanı var ki, özünün ruhani kadrlarını hazırlasın. Çünki bunun üçün heç bir qadağa yoxdur. Qanunla hər bir dindar azad şəkildə öz dini etiqadı ilə məşğul ola, dini fəaliyyətini inkişaf etdirə, adət və mərasimlərin yerinə yetirilməsində iştirak edə bilər. Bu gün Azərbaycanda 2166 məscid var. İşğal edilən rayonlarımızdakı məscidlərin sayı bu rəqəmə daxil deyil. Halbuki, sovet dövründə bu məscidlərin sayı cəmi 17 idi. Son bir neçə ildə 200-dən çox məscid təmir edilib və ya tikilib. Eyni zamanda, Azərbaycanda 306 məscid dövlət tərəfindən tarixi abidə olaraq qorunur. Bu, faktiki olaraq dövlətin dindarların ibadətlərini yerinə yetirdiyi məkanlara qayğısının ifadəsidir. Azərbaycan tolerant ölkədir, tarixən multikultural dəyərləri özündə yaşadan, inkişaf etdirən məkandır. Azərbaycanda üç səmavi dinin nümayəndələri fəaliyyət göstərir, azad formada dini ayinlərini həyata keçirirlər. Bakı dünyanın ən unikal şəhərlərindən biridir ki, düz xətt üzrə bir kilometr məsafədə üç səmavi dinin ibadətgahı var. Bu nümayəndələr öz dinlərini inkişaf etdirir, dövlətin onlara yaratdığı şəraitdən bəhrələnir. Qeyd etdiyim kimi dövlət başçısının Sərəncamı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə ayrılmış 2,5 milyon manat vəsaitdən müsəlman və qeyri-müsəlman dini icmalarına maliyyə vəsaiti verilir. Həmin vəsaitin bölgüsü zamanı təbii olaraq qeyri-islam təmayüllü dini icmalar da nəzərə alınıb və bu icmalara ümumilikdə 400 min manat maliyyə vəsaiti ayrılıb.

**- Bəs, digər dinlərə məxsus neçə ibadətgah fəaliyyət göstərir?**

- Azərbaycan tarixən müxtəlif dinlərin nümayəndələrinin birlikdə sülh və qardaşlıq mühitində yaşadığı bir dövlət olub. Azərbaycan əhalisinin 96 faizinin müsəlman olmasına baxmayaraq, bu gün burada məscidlərlə bərabər kilsələr, sinaqoqlar da fəaliyyət göstərir. Eyni zamanda, ölkə ərazisində mövcud olan İslam dini abidələri ilə yanaşı, digər dinlərə aid ibadət ocaqları maddi-mənəvi irs kimi mühafizə edilir. Bakı şəhərində tikilmiş sinaqoq Avropada ən möhtəşəmlərdən sayılır. Rus pravoslav kilsəsi, katolik kilsəsi əzəmətinə və gözəlliyinə görə xristian ölkələrindəki kilsələrdən heç də geri qalmır.

Azərbaycanda 13 kilsə, 7 sinaqoq fəaliyyət göstərir.

**- Dinin siyasətə qarışması, dindən siyasətdə alət kimi istifadə olunması ehtimalları və təhlükələri nə qədərdir?**

- Bu, qəti yolverilən hərəkət ola bilməz. Dindar dindardır, siyasətçi isə siyasətçidir. Ən qızıl qayda bundan ibarətdir ki, hər kəs öz işi ilə məşğul olsun. Din heç bir halda siyasi alət vasitəsi, dindar da siyasətlə məşğul olmalı deyil. Bunlar tamamilə ayrı-ayrı anlayışlar və funksiyalardır. Dindar siyasətə qarışanda öz ampulasından kənara çıxır. Aydındır ki, belə məqamda qanun ona öz yerini göstərməyə məcbur olur.

**- Radikal dini qruplar müəyyən dövrdə aktiv idilər. Bu sırada daha çox vəhhabilərin, "Meşə qardaşları"nın adı qeyd olunurdu. Bu baxımdan vəziyyət nədən ibarətdir?**

- Azərbaycanda radikal dini qrupların fəaliyyəti nəzərə çarpacaq dərəcədə azalıb. Onların təsir və nüfuzları günü-gündən azalır. Çünki onların əsas məqsədi öz zərərli ideyalarını yaymaqdır. Azərbaycanda 1300 ilə yaxındır ki, İslamın ən böyük iki qolu fəaliyyət göstərir. Mən şiə və sünniləri nəzərdə tuturam. Əhalimiz də coğrafiyası və ərazisi etibarı ilə bu iki dinin qollarının daşıyıcılarıdır. Yeni dini təlimlə ortaya çıxmaq doğru deyil. Bu sadəcə insanları çaşdırmağa xidmət edir. Həm də belə məqsədlərin arxasında çirkin niyyətlər durur. Bu məqamlar bəlli olduqda dövlətin bəlli struktur və orqanları bu məsələni araşdırır.

**- Nardaranda hazırki vəziyyəti necə qiymətləndirirsiniz?**

- Nardaranda çox normal vəziyyət hökm sürür. Orada artıq dini icma qurulub, icmanın sədri müəyyənləşib. Hər şey qaydasındadır. Azərbaycan dövləti də Nardaranın həm iqtisadi, həm sosial, həm də mənəvi inkişafında maraqlıdır. Dövlət bu istiqamətdə əlindən gələn köməyi Nardaran camaatına göstərir. Nardaranda bundan sonra iqtisadi, sosial və quruculuq mənasında heç bir problem olmayacaq.

# 31 mart – Azərbaycanlıların Soyqırımı Günü

**«Tarixi yaddaşsızlıq və unutqanlıq xalqımıza baha başa gələ bilər. Azərbaycanlılara qarşı zaman-zaman törədilən bu ağır cinayətləri unutmamaq, böyüyən nəsli bədxah qüvvələrin məkrli niyyətlərinə qarşı ayıq-sayıqlıq ruhunda tərbiyə etmək mühüm vəzifədir»**

***Heydər Əliyev***



Təəssüf ki, xalqımızın taleyinə bir neçə soyqırımı yaşamaq yazılmışdır. Bəlkə də, bu, ondan irəli gəlir ki, biz heç bir millətə qarşı düşmən münasibətdə olmamış, bizə qarşı törədilən haqsızlıqları, qətlləri tarixi yaddaşımıza yazmamış və tez unutmuşuq. Eyni zamanda, tariximizə baxarkən görürük ki, həmişə qələbələrimizi bayram etmişik, bizə qarşı olan ziddiyyətləri isə xatırlamamışıq. Vəziyyət belə olunca tariximizin bir hissəsi həmişə qaranlığa qərq olmuşdur. Bu qaranlıq səhifələrdən birini də 31 mart soyqırımı təşkil edir.

Qədim dövrlərdən başlayaraq ermənilər Azərbaycan xalqına düşmən gözü ilə baxmış və öz dilləri ilə desək, "böyük Ermənistan" yaratmaq fikrindən çəkinməmişlər. Onlar üçün ən əlverişli mühit isə XX əsrin əvvəllərində yarandı. Mənfur düşmənimiz düşünülmüş hiylə işlədərək erməni adı ilə yox, məhz bolşevik adı altında bu planı icra etdi. Həmin dövrlər Rusiyada baş verən oktyabr inqilabının ardınca, mənşəcə erməni olan Stepan Şaumyanın rəhbərlik etdiyi Bakı Soveti Bakı quberniyasında hakimiyyətə gəldi. Və bununla da Azərbaycan türkləri üçün acı günlər başladı. Qeyd etmək yerinə düşərdi ki, artıq bu dövrə qədər - 1905-1907-ci illərdə ermənilər bu cür qırğınlar törətmək istəsələr də, bir sıra çətinliklərə görə geri çəkilməli olmuşdular. Həmin illərdə xalqımızın döyüşkən ruhu, Osmanlı və Cənubi Azərbaycandan könüllülərin köməyə gəlməsi, H.Z.Tağıyev və digər azərbaycanlı xeyriyyəçi milyonçuların əhaliyə ərzaq və maliyyə yardımı göstərməsi erməni quldurlarının qarşısını kəsmişdi.

Soyqırımı ərəfəsində Müsavat Partiyasının sosial bazası çox möhkəm idi və Azərbaycan milli hərəkatı aktiv fəaliyyət göstərirdi. Bolşeviklərin əsas vəzifəsi isə sosial bazanı məhv etmək və Azərbaycan milli hərəkatına divan tutmaqdan ibarət idi. Odur ki, 1918-ci il 15 mart tarixində keçirilən toplantıda S.Şaumyan azərbaycanlılara qarşı soyqırımı göstərişi verdi. Tarixi mənbələrdən aydın olur ki, Şaumyan tərəfindən V.Leninə göndərilən məktubda bu qırğını qəsdən törətdiklərini açıq şəkildə elan etmişdir. Həmin dövrdə heç kimin tərəfində olmayan Daşnaksutyun partiyası da bolşeviklərin sırasına keçdi. Lakin S.Şaumyan yaxşı bilirdi ki, bu qırğını törətmək üçün bir bəhanə işlətmək gərəkdir və o, bunu böyük ustalıqla yerinə yetirdi. Belə ki, H.Z.Tağıyevin oğlu M.Tağıyev Lənkəran şəhərində bolşevik silahlıları tərəfindən qətlə yetirilmişdi və onun dəfn mərasimində iştirak etmək üçün müsəlman korpusunun komandiri Talışinskinin başçılıq etdiyi alay da Bakıya gəlmişdi. Tağıyevin oğlunun cəsədi şəxsi heyəti 48 müsəlman hərbçidən ibarət olan "Evelina" gəmisi ilə Lənkərandan Bakıya gətirilirdi. Erməni milli şurası yalan məlumat verərək bildirdi ki, bu hərbçilər Muğandakı rus kəndlərini məhv edəcək. Şaumyan bunu bəhanə edib, zabitlərin tərksilah edilməsinə dair göstəriş verdi. Eyni zamanda general Talışinski və alay üzvləri də həbs olundu. Bu zaman azərbaycanlılar Bakı Sovetinə qarşı etiraz etməyə başladılar. Bundan sonra azərbaycanlılara qarşı soyqırımı başladı.

"Kərpicxana" və "Məmmədli" məhəllələrində qan su yerinə axırdı. Daşnaklar bir şüarı əllərində bayraq etmişdi: "Biz heç bir bolşevik tanımırıq, təkcə müsəlman olmağın kifayətdir".
Azərbaycanlıların soyqırımı təkcə Bakıda deyil, Quba, Şamaxı, Lənkəran, Salyan, Qarabağ, Naxçıvan qəzalarında da reallaşdı. 30 mart tarixindən başlayan bu qanlı hadisə aprel ayının sonlarınadək mərhələli şəkildə həyata keçirildi. Vurğulamaq lazımdır ki, bu qırğının törədilməsində təkcə S.Şaumyan deyil, həmçinin Mikoyanın "Qırmızı Qvardiya"sı, Amazasp, Lalayans, Avetisyan, Petrov da əvəzedilməz rol oynamışdır. Bolşeviklərin 6 minlik, Daşnaksütun partiyasının 3-4 minlik hərbi dəstəsinin iştirakı ilə törədilən bu soyqırımı nəticəsində ümumilikdə 50 minə qədər azərbaycanlı müsəlman qətlə yetirilmişdir.

31 mart soyqırımının ən mühüm cəhəti ondan ibarətdir ki, bu qırğında mədəni irsimizə böyük zərbə vuruldu. "Açıq söz" qəzetinin redaksiyası, "Kaspi" mətbəəsi, "İsmailliyyə" binası, "Təzəpir" məscidi insanların gözü önündə yandırıldı. Görkəmli ziyalılarımızın böyük zəhmətlə ərsəyə gətirdiyi, çap avadanlıqları ilə təchiz olunmuş elektrik mətbəələri məhv edildi.

31 mart, eyni zamanda Azərbaycan xalqının tarixi yaddaşına, ziyalılarına qarşı mənəvi soyqırımı idi. Belə ki, ermənilər bu vəhşilikləri dünya ictimaiyyətindən gizlətmək üçün Azərbaycan ziyalılarını məhv etməyə çalışırdılar. "İstiqlal" qəzeti məlumat verirdi ki, ermənilər evbəev gəzərək ziyalıları güllələboran edirlər. Bu hadisələr zamanı müsəlmanlara qarşı törədilən faciələri doğru şəkildə əhaliyə çatdıran bir sıra rusdilli qəzetlər bağlandı. S.Şaumyan bildirirdi ki, guya bu qəzetlər mart hadisələrinə düzgün qiymət vermir və vahid sosialist cəbhədə dayanmırlar. Onun əmri ilə Azərbaycanın digər yerlərində insanların bu vəhşiliklərdən xəbər tutmaması üçün erməni və bolşevik mətbuatları istisna olmaqla, digər qəzet və jurnalların fəaliyyəti dayandırıldı.



Ancaq bu soyqırımı sanki xalqımızı dərin yuxudan oyatdı. AXC-nin təsis edilməsi həmin dövr üçün böyük dirçəliş oldu. Məhz AXC tərəfindən 31 mart hadisəsi 1919 və 1920-ci illərdə ümummilli matəm günü elan edildi. Soyqırımının hərtərəfli tədqiqi ilə bağlı Fövqəladə İstintaq Komissiyası, o cümlədən bu cinayətləri dünyaya çatdırmaq üçün xüsusi qurum təsis edilsə də, gənc dövlətin süqutu bu işin yarımçıq qalmasına gətirib çıxartdı.

Azərbaycan uzun müddət Sovet imperiyasının tərkibində qaldığına görə bu məsələ insanların yaddaşından silinirdi. Lakin Ümummilli Lider Heydər Əliyevin 1998-ci il tarixli Fərmanı ilə ilə 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edildi. Sonrakı dövrlərdə bu soyqırımı istiqamətində ciddi araşdırmalara başlanıldı və 2007-ci ildə Qubada aşkar edilmiş kütləvi məzarlıq 31 mart soyqırımının iç üzünü dünyaya tanıtdı. Bu soyqırımı bir daha təsdiq edir ki, düşmənə qarşı azərbaycanlılar daim birlik nümayiş etdirməlidir. Necə ki, M.Ə.Rəsulzadə bunu 1919-cu il aprel ayında nəşr edilmiş "Azərbaycan" qəzetində söyləmişdi: "31 mart bizə birlik və ittihad üçün bir nümuneyi-imtisal eyləsin".

***Hazırladı: Abdulla ƏFƏNDİYEV***





# Dövlət Komitəsinin sədri Hindistanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfirini qəbul edib

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı martın 7-də Hindistanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Sanjay Ranani qəbul edib.



Mübariz Qurbanlı Azərbaycan və Hindistan arasında siyasi, iqtisadi, mədəni, humanitar və digər sahələrdə əməkdaşlığın inkişaf etdiyini deyib. Dövlət Komitəsinin fəaliyyəti barədə qonağa ətraflı məlumat verən Mübariz Qurbanlı tarix boyu Azərbaycan ərazisində etnik və dini icmalar arasında möhkəm dostluq və qardaşlıq əlaqələrinin olduğunu, milli, irqi, dini ayrı-seçkiliyə yol verilmədən müxtəlif dinlərə mənsub insanların sülh və əmin-amanlıq şəraitində fəaliyyət göstərdiklərini bildirib. O qeyd edib ki, Azərbaycanda dövlət-din münasibətləri mükəmməl formada qurulub, dövlət tərəfindən İslam və qeyri-islam dini icmalara mütəmadi olaraq maliyyə yardımı edilir.

Komitə sədri bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə 2016-cı ilin "Multikulturalizm ili" elan edilməsi, eləcə də həyata keçirilən bütün bu işlər multikulturalizmin dövlət siyasətində prioritet istiqamət olmasının göstəricisidir. Bu ilin "Multikulturalizm ili" elan edilməsində məqsəd ölkəmizdə formalaşmış bu ənənələri daha da inkişaf etdirməkdir.

Azərbaycandakı multikultural və tolerant mühitin, burada müxtəlif dinlərin, mədəniyyətlərin, dillərin nümayəndələrinə bərabər münasibətin göstərildiyinin şahidi olduğunu deyən səfir, din sahəsində də qarşılıqlı əməkdaşlıqdan məmnun qalacaqlarını diqqətə çatdırıb.

Görüşün sonunda qonaq səmimi qəbula görə Dövlət Komitəsinin sədrinə təşəkkürünü bildirib.



# Dövlət Komitəsi daha 18 dini icmaya maliyyə yardımı ayırıb

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) martın 2-də və 15-də yeni maliyyə yardımı ayrılmış 18 dini icmanın sədrlərinin iştirakı ilə toplantı keçirilib.**

Tədbirlərdə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı Prezident İlham Əliyevin ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədi ilə dini icmalara maliyyə yardımı göstərmək üçün imzaladığı müvafiq Sərəncamın əhəmiyyətindən danışıb. Maliyyə vəsaitinin ayrılması ilə bağlı icmalar tərəfindən təqdim edilən layihələrin məqsədinin yerlərdə dini maarifləndirmə işlərinin genişləndirilməsi, xalqımızın dərin tarixi köklərə malik tolerant və multikultural dəyərlərinin ictimaiyyətə dolğun formada çatdırılması olduğunu vurğulayan Səyyad Salahlı müvafiq Sərəncamı dövlətin dinə qayğısının ən bariz nümunəsi kimi qiymətləndirib. O bildirib ki, dövlət tərəfindən yalnız İslam deyil, qeyri-islam təmayüllü dini icmalara da maliyyə vəsaiti ayrılır ki, bu da Azərbaycan xalqının dərin tarixi köklərə malik multikultural dəyərlərindən qaynaqlanır.

Komitə sədrinin birinci müavini icma sədrlərinə məzhəblərarası qarşıdurmaya sövq edən hərəkətlərin qarşısını almağı, rəhbərlik etdikləri icmaların radikalizmlə ideoloji mübarizə istiqamətində fəaliyyət göstərmələrini tövsiyə edib.

Qeyd edək ki, Prezident İlham Əliyevin 27 noyabr 2014-cü ildə imzaladığı Sərəncama uyğun olaraq Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən 114 dini icmaya maliyyə yardımı ayrılıb ki, bunlardan 19-u qeyri-islam, 95-i isə İslam dini icmasıdır. Dini icmalar ayrılmış vəsait hesabına dini maarifləndirmə və milli-mənəvi dəyərlərimizin təbliği istiqamətində yerlərdə tədbirlər keçirməkdə davam edirlər.

# Bölgələrdə "Multikulturalizm ili" çərçivəsində tədbirlər keçirilib



Tarixi İpək yolunda yerləşən Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq, əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınmışdır. Ölkəmizdə multikulturalizm artıq alternativi olmayan həyat tərzinə çevrilmişdir. Odur ki, ölkəmizin tolerantlıq ənənələrinə, mədəniyyətlər və sivilizasiyalararası dəyərlərə mühüm töhfələr verdiyi nəzərə alınaraq, Prezident İlham Əliyev 2016-cı ili Azərbaycanda "Multikulturalizm ili" elan edib və bu yaxınlarda "2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsinə dair Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) də "Multikulturalizm ili" çərçivəsində paytaxtla yanaşı, regionlarda bölgə şöbələri, rayon icra hakimiyyətləri və digər dövlət qurumlarının birgə təşkilatçılığı ilə ardıcıl tədbirlər həyata keçirir. "Multikulturalizm ənənəsinə sadiqlik", "Azərbaycan multikultural dövlətdir", "Multikulturalizm: sözdə və əməldə", "Multikulturalizm və zərərli dini cərəyanlar", "Azərbaycan: Tolerantlıq və multikulturalizmin mərkəzi kimi", "Multikulturalizm və dini radikalizmə qarşı mübarizə" mövzularında Sumqayıt, Şəki, Quba, Lənkəran bölgələrində baş tutan tədbirlərdə DQİDK-nın bölgə şöbələrinin, rayon icra hakimiyyətlərinin və digər dövlət qurumlarının əməkdaşları, o cümlədən təhsil nümayəndələri, Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndələri məruzələrlə çıxış ediblər. Gənclər, müəllim və şagirdlər, elmi işçilər, din xadimləri və digər ictimaiyyət nümayəndələrinin qatıldığı tədbirlərdə ölkəmizdəki tolerantlıq ənənələrindən, Azərbaycandakı müxtəlif xalqların və dinlərin nümayəndələrinin yaşadıqları multikultural həyat tərzindən, həmçinin dövlət-din münasibətlərindən bəhs olunub. Qeyd edilib ki, multikulturalizm xalqımızın tarixən formalaşmış milli-mənəvi dəyərlər sisteminin vacib elementlərindən biri və həyat tərzidir. Çıxış edən natiqlər milli-mənəvi dəyərlərin təbliğinin zəruriliyi məsələsinə toxunub və multikultural mühitin mövcudluğuna dair konkret örnəklər göstəriblər. Bundan başqa, zərərli dini cərəyanların yaranma tarixi, bu cərəyanların təhlükəli planları barədə də söhbət açılan tədbirlərdə gənclərimizin milli, dini, mənəvi dəyərlərimiz ruhunda tərbiyə edilməsi, onların zərərli dini cərəyanlardan uzaq olmasını aşılamaq məqsədilə bu cür tədbirlərin mütəmadi keçirilməsinin vacibliyi vurğulanıb.



# Səyavuş Heydərov: "Dini və multikultural təhlükəsizlik milli təhlükəsizliyin tərkib hissəsidir"



***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Səyavuş Heydərov son vaxtlar mühüm aktuallıq kəsb edən dini təhlükəsizlik məsələləri ilə bağlı AZƏRTAC-a müsahibə verib.***

**-Son dövrlərdə dünyada gedən proseslərdə, baş verən qarşıdurmalar və müharibələrdə dini amil daha qabarıq şəkildə özünü büruzə verir. Bunun səbəbini nədə görürsünüz?**

- Doğrudur, son illərdə dünyada, xüsusilə Yaxın Şərqdə gedən proseslərə nəzər salsaq görərik ki, dinlərarası və məzhəblərarası münasibətlərdə yeni bir gərginlik mərhələsi başlayıb. Bunun müxtəlif səbəbləri olsa da, ən başlıca səbəb münaqişə olan yerlərdə dini təhlükəsizliyin təmin olunmaması ilə əlaqədardır. Vaxtilə həmin ölkələrdə dövlətdin münasibətləri sağlam müstəvidə qurulsaydı, dini təhlükəsizlik və multikultural təhlükəsizlik təmin edilsəydi, yəqin ki, bu gün biz tamam fərqli mənzərə ilə qarşı-qarşıya qalardıq. Təəssüf ki, hazırda Yaxın Şərqdə dini zəmində baş verən hadisələr insan tələfatı, şəhərlərin, qəsəbələrin məhv edilməsi və böyük miqrant probleminin ortaya çıxması ilə nəticələnib.

**-Sizin də qeyd etdiyiniz kimi, günümüzdə "dini təhlükəsizlik" anlayışı xeyli aktuallaşıb. Ölkəmizdə bu təhlükəsizlik necə tənzimlənir?**

-Xatırladım ki, dini təhlükəsizlik problemləri hələ ötən əsrin 90-cı illərinin əvvəllərində, Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkəmizin ictimai-siyasi həyatına daxil olub. Buna səbəb Azərbaycanda yaranmış ideoloji boşluq və xaosdan yararlanan xarici qüvvələrin ölkəmizdə geosiyasi maraqlarının təmin edilməsi məqsədilə yad dini-siyasi ideologiyaların nüfuz etdirilməsi olub. Həmin dövrlərdə Azərbaycanda "demokratik mühitin formalaşdırılması", "dini etiqad azadlığının təmin edilməsi" adı altında ölkəmizdə sosial bazası olmayan qeyri-ənənəvi din və təriqətlərin, əslində destruktiv ideologiyaların təbliğinə başlanılıb. Konkret deyə bilərəm ki, bəzi xarici ölkələrin siyasi dairələri, o cümlədən xüsusi xidmət orqanları tərəfindən yönəldilən həmin destruktiv təşkilatlar vətəndaşlarımız arasında bir tərəfdən etnik və dini qarşıdurmanın yaradılmasına, digər tərəfdən işğalçı Ermənistana münasibətdə təslimçilik, dövlət və hakimiyyət orqanlarına isə etimadsızlığın yayılmasına səy göstəriblər. Hədəf isə Azərbaycanda vətəndaş və milli birliyin tarixən formalaşmasına zəmin yaradan ənənəvi tolerantlıq mühitinin məhv edilməsi idi. Məhz Ulu Öndər Heydər Əliyev ikinci dəfə hakimiyyətə gəldikdən sonra bu təhdidlərin qarşısının alınması istiqamətində məqsədyönlü, düşünülmüş və ölkəmizi uçurumdan xilas edən tədbirlərin həyata keçirilməsinə başlanıldı. Dini təhlükəsizliyin təminatı məsələsi həmin dövrdən Azərbaycan dövlətinin daxili siyasətinin prioritet istiqamətlərindən birinə çevrildi, müasir multikulturalizm siyasətinin təməli də qoyulmuş oldu.

Bu gün dünyada cərəyan edən, sülh və beynəlxalq təhlükəsizlik üçün təhdid xarakteri daşıyan geosiyasi proseslərin dinamik inkişafı fonunda ictimai-siyasi həyatda din amili, dini təhlükəsizlik problemləri daha da aktuallaşıb. Bu baxımdan, Azərbaycan Respublikasında dini təhlükəsizlik məsələləri ölkədə əsrlər boyu xalqlar, ənənəvi din və məzhəblər arasında formalaşmış birgəyaşayış normaları çərçivəsində dini münasibətlər sisteminin qorunmasına yönəldilmiş hüquqi fəaliyyətdir. Biz dövlət-din münasibətlərinin tənzimlənməsi istiqamətində bütün dünyaya nümunə ola biləcək bir strategiya ortaya qoymuşuq. Sirr deyil ki, bu gün din amili dünyada mədəni-əxlaqi dəyər çərçivəsindən çıxaraq kəskin şəkildə siyasiləşib. Din təkcə ictimai təfəkkürə deyil, mədəniyyətə, siyasi mövqeyə, insanların mənəvi həyatına ciddi təsir göstərən siyasi vasitəyə çevrilməkdədir.

Azərbaycanda dini təhlükəsizliyin təmin edilməsinin hüquqi təminatının mənbəyi Azərbaycan Respublikasının Konstitusiyası, dövlət başçısının müvafiq fərmanları, ayrı-ayrı qanunlar və dövlətin milli təhlükəsizlik strategiyasıdır. Bu sənədlərdə vətəndaşların dini etiqad azadlığını, dini birlik və təşkilatların fəaliyyətlərini tənzimləyən, onlara qarşı yönəldilən təhdidlərlə mübarizənin əsas prinsip və normativləri öz əksini tapıb.

**-Bu problemin həllində dini maarifləndirmənin rolu barədə nə deyə bilərsiniz?**

- Əlbəttə, dini təhlükəsizliyin təminatında dini maarifləndirmənin müstəsna əhəmiyyəti var. Maarifləndirmə bütün neqativ hallara qarşı mübarizədə ən effektiv vasitədir. Dini maarifləndirmənin düzgün aparıldığı şəraitdə dini təhlükəsizliyə yönəldilən təhdidlərin səviyyəsi azalır. Bu isə ictimai-siyasi sabitliyin təminatında, vətəndaşların dini etiqad azadlığının qorunmasında, tolerantlıq ənənələrinin inkişafında, xüsusilə indiki dövrdə, dini zəmində ziddiyyətlərin dövlətlər və xalqlar arasında hərbi qarşıdurmalara transformasiyası şəraitində düzgün multikulturalizm siyasətinin həyata keçirilməsi üçün olduqca əhəmiyyətlidir. Biz unutmamalıyıq ki, dini təhlükəsizlik multikultural təhlükəsizliyin, multikultural təhlükəsizlik isə ictimai-siyasi təhlükəsizliyin, ümumilikdə isə bu amillər milli təhlükəsizliyin tərkib hissəsidir. Zəncirvari şəkildə bir-biri ilə bilavasitə əlaqəli olan bu anlayışlar ayrı-ayrılıqda öz təsirini itirir. Xarici təcrübəyə müraciət etsək görərik ki, dini maarifləndirmənin olmadığı və ya deklorativ xarakter daşıdığı ölkələrdə bir tərəfdən dini dözümsüzlük təhlükəsi artır, multikultural dəyərlər itir, digər tərəfdən ənənəvi din və təriqətlərin yerini totalitar və destruktiv xarakterli cərəyanlar, dini-siyasi hərəkatlar tutmağa başlayır. Əlbəttə, demokratik və dünyəvi dövlətlərdə, o cümlədən Azərbaycan Respublikasında din dövlətdən ayrıdır. Daha dəqiq desək din mənəvi-əxlaqi dəyər xarakteri daşıyır. Unutmayaq ki, milli kimliyimizin, milli mədəniyyətimizin, maddi və qeyri-maddi mədəni irsimizin bir çox elementlərinin, məsələn poeziyamızın, təsviri sənətimizin, rəmz sisteminin, memarlığın, ətraf aləmi dərketmə tərzinin, cəmiyyətdaxili davranış və əxlaq normalarının, adət-ənənələrin və s. formalaşmasında din amilinin müstəsna rolu olub. Din həm də güclü ideologiya, böyük potensiala malik səfərbəredici qüvvədir. Bu baxımdan, dini maarifçiliyin zəif olduğu yerlərdə dini təhlükəsizlik məsələləri getdikcə aktuallaşır. Çünki qeyri-ənənəvi din və təriqətlərin, əslinə qalsa, din pərdəsi altında missionerlik fəaliyyəti göstərən destruktiv təşkilatların təsiri altına düşən vətəndaş ilk növbədə milli-mədəni və əxlaqi dəyərlərdən uzaqlaşır və cəmiyyət üçün itirilir. Belə insanlar üçün "ailə", "vətən", "xalq", "dövlət" və "Azərbaycançılıq" kimi ifadələr əhəmiyyətsiz sözlərə çevrilir. Məhz belələri Azərbaycanda geosiyasi və geoiqtisadi maraqları olan, dövlətin siyasi kursunun dəyişdirilməsini istəyən xarici qüvvələr üçün hazır sosial bazaya çevrilir. Bu zaman isə dini təhlükəsizlik maraqları gündəmə gəlir. Yəni söhbət hansı dinin, təriqətin "yaxşı" və ya "pis" olmasından getmir. İstədiyi dinə etiqad etmək hər kəsin seçimi və hüququdur, qanunlarımız bu hüquqları da müdafiə edir. Lakin unutmamalıyıq ki, din dövlətdən ayrı olsa da, dindar vətəndaş yaşadığı cəmiyyətdən ayrı deyil və din amilindən qarşıdurma yaratmaq məqsədilə, xüsusilə siyasi maraqlar naminə istifadə olunması yolverilməzdir. Dini təhlükəsizliyin təmin edildiyi cəmiyyətlərdə isə belə qarşıdurmaların olması ehtimalı çox azdır.

**- Bu qənaətə gəlmək olar ki, söhbət din amilinin kimlərinsə əlində effektiv ideoloji və psixoloji silah olmasından gedir…**

- Dinə yanaşma tərzi müxtəlif ola bilər. Din bütün parametrlərinə əsasən böyük səfərbəredici qüvvəyə malik ideologiyadır. Bu ideologiya kimlər tərəfindən istiqamətləndirilməsindən asılı olaraq, dövlətçiliyin, ictimai-siyasi sabitliyin möhkəmləndirilməsinə yönəldilə və ya dağıdıcı, destruktiv qüvvə, vasitə kimi istifadə edilə bilər. Dini ideologiya bir sıra sosial-mədəni amillərlə birlikdə əhalinin dindar kəsimində dini psixologiyanın formalaşmasında, yəni dünyəvi baxışdan fərqli davranış və düşüncə tərzlərinin, təsəvvürlərin, stereotiplərin, cəmiyyətdaxili münasibətlərin yaranmasında başlıca rol oynayır. Bu baxımdan, ideoloji və psixoloji mübarizə cəbhəsində yaranmış vəziyyət vətəndaşlarımızın mənəvi təhlükəsizliyinin mühüm hissəsi olan dini təhlükəsizlik problemlərinin həllinin effektiv üsullarla tənzimlənməsini, xaricdən təlqin edilən aqressiv, totalitar dini ideologiyaya qarşı fəaliyyətin gücləndirilməsini tələb edir.

**- Azərbaycanın tolerantlıq və multikulturalizm modellərini dünyaya təqdim etmək üçün hansı tədbirlər görülür?**

- Bildiyiniz kimi, bu il Azərbaycanda "Multikulturalizm ili" elan olunub. Artıq Azərbaycanın tolerantlıq və multikulturalizm modelləri kifayət qədər uğurlu şəkildə dünyaya təqdim olunmaqdadır. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, "başqa ölkələrdən fərqli olaraq bizdə multikulturalizm yaşayır və bu, bizim dövlət siyasətimizdir". Təbii ki, burada sual yarana bilər. Nəyin hesabına yaşayır? Burada biz həmin komponentləri sadalaya bilərik. Ona görə yaşayır ki, ölkəmizdə dövlət-din münasibətləri yüksək səviyyədə tənzimlənir. Azərbaycanda bütün xalqların və dinlərin nümayəndələrinin təhlükəsizliyi təmin edilir, dini etiqad azadlığı var, dövlət hər bir vətəndaşına eyni dərəcədə diqqət və qayğı göstərir, insanlarımız bir-birinə tolerant yanaşırlar. Hər hansı xalqın və ya dinin nümayəndəsi özünü ölkəmizdə yad hiss etmir və xoşbəxt yaşayır. Gəlin sual edək. Dünyanın neçə ölkəsində biz belə münasibətin və şəraitin olduğunu görə bilərik? Yəqin ki, belə ölkə tapmaq çox çətindir. Yuxarıda sadaladığımız bu komponentlər ölkəmizdə dini təhlükəsizliyin, eləcə də multikultural təhlükəsizliyin qarantı rolunu oynayır. Cəmiyyətimizin belə möhkəm dayaqlar üzərində dayanması da onun gələcək inkişafının sürətli və dinamik olacağından xəbər verir.

## BÖLGƏ MÜDİRLƏRİMİZ HESABAT VERİR

# Şəki

***Şəki bölgəsi üzrə şöbə 2015-ci ilin may ayında Şimal-qərb bölgəsi üzrə şöbənin əsasında yaradılmışdır. Şöbənin dislokasiyasına Şəki, Oğuz və Qəbələ rayonları daxildir. Müasir Azərbaycan tolerantlığının və multikulturalizminin canlı nümunəsi olan bu ərazi həm etnik, həm də dini cəhətdən ölkəmizin ən zəngin bölgələrindən biridir. Digər bölgələrdə olduğu kimi, burada da Azərbaycan türkləri ilə yanaşı, ləzgi, rus, udin, yəhudi, tatar, kürd və s. xalqların nümayəndələri mehribanlıq və birgəyaşayış ənənəsini ən gözəl şəkildə nümayiş etdirirlər. Yerli əhalinin əksəriyyətini müsəlmanlar təşkil etməsinə baxmayaraq, bölgədəki xristianlar və yəhudilər də öz ibadətlərini azad və sərbəst şəkildə həyata keçirirlər.***

***Təqribən 325 min nəfər əhalinin yaşadığı və 117 məscid, 4 kilsə, 2 sinaqoq, 31 ziyarətgahın mövcud olduğu bölgədə fəaliyyət göstərən 74 dini icmadan 53-ü Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yenidən dövlət qeydiyyatından keçmişdir. Digər icmaların da dövlət qeydiyyatından keçmələri ilə bağlı müvafiq işlər uğurla davam etdirilir. Bölgədə dini təhsil ocaqlarından Şəki İslam mədrəsəsi, eləcə də Qəbələ şəhərində bir dini təyinatlı ixtisaslaşdırılmış satış məntəqəsi fəaliyyət göstərir.***



Şəki bölgəsi üzrə şöbə 2015-ci ilin may ayında Şimal-qərb bölgəsi üzrə şöbənin əsasında yaradılmışdır. Şöbənin dislokasiyasına Şəki, Oğuz və Qəbələ rayonları daxildir. Müasir Azərbaycan tolerantlığının və multikulturalizminin canlı nümunəsi olan bu ərazi həm etnik, həm də dini cəhətdən ölkəmizin ən zəngin bölgələrindən biridir. Digər bölgələrdə olduğu kimi, burada da Azərbaycan türkləri ilə yanaşı, ləzgi, rus, udin, yəhudi, tatar, kürd və s. xalqların nümayəndələri mehribanlıq və birgəyaşayış ənənəsini ən gözəl şəkildə nümayiş etdirirlər. Yerli əhalinin əksəriyyətini müsəlmanlar təşkil etməsinə baxmayaraq, bölgədəki xristianlar və yəhudilər də öz ibadətlərini azad və sərbəst şəkildə həyata keçirirlər.

Təqribən 325 min nəfər əhalinin yaşadığı və 117 məscid, 4 kilsə, 2 sinaqoq, 31 ziyarətgahın mövcud olduğu bölgədə fəaliyyət göstərən 74 dini icmadan 53-ü Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yenidən dövlət qeydiyyatından keçmişdir. Digər icmaların da dövlət qeydiyyatından keçmələri ilə bağlı müvafiq işlər uğurla davam etdirilir. Bölgədə dini təhsil ocaqlarından Şəki İslam mədrəsəsi, eləcə də Qəbələ şəhərində bir dini təyinatlı ixtisaslaşdırılmış satış məntəqəsi fəaliyyət göstərir.

Şəki bölgəsi üzrə şöbə illik fəaliyyətini "Dini etiqad azadlığı haqqında" Qanuna, Dövlət Komitəsinin rəhbərliyi tərəfindən verilən tapşırıqlara və öz İş Planına əsasən həyata keçirir. Dövlət-din münasibətlərinin düzgün şəkildə tənzimlənməsi, radikal dini cərəyanların fəaliyyətinin, onlar tərəfindən dövlətçiliyimizə və milli maraqlarımıza zidd təbliğatların aparılmasının qarşısının alınması, dini icmaların səmərəli fəaliyyətinin təmin edilməsi, dini maarifləndirmə və s. bölgə şöbəsinin fəaliyyətinin prioritet istiqamətlərini təşkil edir. Bu məqsədlə Şəki bölgəsi üzrə şöbə yerli icra hakimiyyətləri, hüquq-mühafizə orqanları, Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndələri, təhsil şöbələri və digər təşkilatlarla əməkdaşlıq edir, dini radikalizm və onun zərərləri, dövlət-din münasibətləri, ənənəvi İslam dəyərləri, tolerantlıq, multikultralizm və s. mövzularda çoxsaylı tədbirlər keçirir.

2014-2015-ci tədris ili ərzində dini radikalizmə qarşı mübarizə ilə bağlı şöbə əməkdaşlarının iştirakı ilə Şəki rayon polis və təhsil şöbələri ilə birlikdə Pedaqoji Universitetin Şəki filialında, Pedaqoji, Musiqi, Texniki, Tibb kolleclərində və 98 ümumtəhsil məktəbinin hər birində narkomaniya, erkən nikah, dini radikalizm və onun fəsadları mövzusunda maarifləndirici seminarlar keçirilmişdir. Bu cür tədbirlər gənclərin düzgün istiqamətdə maariflənməsi, radikal dini təbliğatın təsiri altına düşməmələri, zərərli vərdişlərin insana və cəmiyyətə vurduğu ziyan və bu kimi problemlərdən qorunmaları üçün xüsusi əhəmiyyət kəsb edir.

Bəhs olunan dövrdə bölgənin ictimai və dini həyatında mühüm hadisələrdən biri də dini bayram və mərasimlərin, müxtəlif tarixi günlərin qeyd edilməsi olmuşdur. Bu müddətdə Ramazan və Qurban bayramları bölgədə yüksək səviyyədə qeyd edilmiş, bir sıra mərasimlər keçirilmişdir. Məhəmməd peyğəmbərin (s) mövludu, Rəqaib, Merac və Bəraət gecələri ilə əlaqədar keçirilən mərasimlər öz tərtibinə və məzmununa görə xüsusilə fərqlənmişdir. Mərasimlər bir qayda olaraq Şəki, Oğuz və Qəbələ rayonlarının mərkəzi məscidlərində təşkil olunmuşdur. Bu qəbildən olan tədbirlərin keçirilməsi, eyni zamanda ənənəvi dini dəyərlərin inkişafına təkan verir.

Bundan əlavə, şöbə tərəfindən Şəki və Oğuz rayonlarının imam və dini icma sədrlərinin iştirakı ilə "İnsan Hüquqları aylığı", "Sülh aylığı", "Uşaq aylığı" çərçivələrində də maarifləndirici tədbirlər baş tutmuşdur. Ümummilli Lider Heydər Əliyevin vəfatının 12-ci ildönümü münasibətilə Şəki bölgəsi üzrə şöbənin təşəbbüsü ilə Şəki İslam Mədrəsəsində təhsil alan bir qrup şagirdin "Heydər Əliyev Mərkəzi"nə ekskursiyası təşkil edilmişdir. Həyata keçirilən tədbirlər müxtəlif istiqamətlər üzrə maarifləndirmə işi ilə yanaşı, həm də dini icmaların, din xadimlərinin fəaliyyət göstərdikləri şəhər və rayonların sosial həyatına yaxından inteqrasiyasına dəstək kimi qiymətləndirilə bilər.

Azərbaycanda aparılan uğurlu demokratik islahatlar nəticəsində ölkəmizdə sağlam vətəndaş cəmiyyətinin formalaşması və inkişafı təmin edilmişdir. Odur ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və onun bölgə şöbələri ölkəmizdə fəaliyyət göstərən qeyri-hökumət təşkilatları ilə əməkdaşlığa xüsusi önəm verir. Belə ki, bölgə şöbəsi "Kainat" Gənclik Mərkəzinin "Mədəni dialoq: etnik ənənələr və müasirlik", "Yeni üfüq" Mənəvi İrsin Təbliği İctimai Birliyinin "Milli-mənəvi dəyərlərimiz və müasir çağırışlar" adlı layihələrinin təşkilində və keçirilməsində yaxından iştirak etmişdir.

Məlumdur ki, müsəlmanların həyatında Ramazan ayı xüsusi əhəmiyyətə malikdir. İnsanlar arasında həmrəylik, sosial yardımlaşma ilə müşahidə olunan bu ayda başqa vaxtlardan fərqli olaraq sanki bir canlanma yaranır. Məscidlərə gələnlərin, ibadət edənlərin sayında artım hiss olunur. İnsanların daha çox üz tutduğu məscidlərin həyətində iftar çadırları qurulur, iftar süfrələri açılır. Odur ki, Dövlət Komitəsi rəhbərliyinin tapşırıq və tövsiyələrinə əsasən Ramazan ayı boyunca hər gün tərəfimizdən bölgənin əsas məscidlərində monitorinqlər aparılmışdır.

2015-ci il 14 iyul tarixində Dövlət Komitəsinin və Şəki Şəhər İcra Hakimiyyətinin dəstəyi ilə din xadimlərinin, dini icma rəhbərlərinin iştirakı ilə təşkil olunan iftar mərasimi xüsusilə yadda qalmışdır. Mərasimdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlının və Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubovun şəxsən iştirakı dindarlar arasında dərin ehtiram və rəğbətlə qarşılanmışdır.

Qurban bayramında bölgə məscidlərində bayram namazı yalnız Qafqaz Müsəlmanları İdarəsi tərəfindən müəyyən olunmuş vaxtlarda qılınmışdır. Bayram münasibəti ilə Şəki, Oğuz, Qəbələ rayonlarında qurbanlar kəsilərək şəhid ailələrinə, yoxsullara, köməksizlərə, Qarabağ əlillərinə, müharibə veteranlarına və köçkün ailələrinə paylanmışdır.

Şəki bölgəsində Aşura mərasimləri də stabil keçmişdir. Bölgədə mərasimlər Şəki şəhər "İmam Əli" və "Ömər Əfəndi" məscidlərində, Şəki rayonu Cəyirli və Qəbələ rayonu Kürd kənd məscidlərində baş tutmuşdur. Mərasimlər zamanı dini dəyərlərimizlə bir araya sığmayan zəncir vurma, qan çıxartma halları baş verməmişdir. Hər il olduğu kimi, bu dəfə də Şəki şəhər "İmam Əli" məscidində qan vermə aksiyası keçirilmiş və 62 nəfər dindar qan verməmdə iştirak etmişdir. Təhlillər göstərir ki, bu nəcib və humanist aksiyada iştirak edənlərin sayı ilbəil artır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədilə dini icmalara maliyyə yardımının ayrılması ölkəmizin, eləcə də Şəki bölgəsinin dini həyatında əlamətdar hadisəyə çevrilmiş və dini icmaların fəaliyyətində yeni bir mərhələ təşkil etmişdir. Keçən il yuxarıda qeyd olunan məqsəd üçün Şəki rayonundan iki, Oğuz rayonundan isə bir dini icmaya maliyyə vəsaiti ayrılmışdır. 2015-ci ilin iyul, avqust və sentyabr ayları ərzində Şəki şəhər "İmam Əli" məscidi dini icması tərəfindən "Dini dözümlülük ənənələrinin təbliğinə və möhkəmləndirilməsinə dair təşəbbüslər", Şəki rayonu İnçə kənd məscidi dini icması tərəfindən "İslam dinində və cəmiyyətdə zərərli vərdişlərə münasibət" və Oğuz şəhər "Cümə" məscidi dini icması tərəfindən "Ənənəvi İslam və dindarların radikal təsirlərdən qorunması" layihələri uğurla baş tutmuşdur.

Dini maarifləndirmənin bir sahəsi kimi il ərzində Dövlət Komitəsinin razılığı ilə çap edilmiş müxtəlif adda dini ədəbiyyatların, kitab və jurnalların məscidlərə vaxtlı-vaxtında paylanması şöbəmiz tərəfindən təmin edilmişdir.

Qeyd edildiyi kimi, bölgəmiz dini və etnik cəhətdən ölkəmizin ən zəngin bölgələrindən biridir. Burada İslam dini icmaları ilə yanaşı, Qəbələ rayonunun Nic qəsəbəsində Azərbaycan Res-publikası Alban-Udi Xristian dini icması, Oğuz şəhər Alban-Udi Xristian və Oğuz şəhəri yəhudi dini icmaları fəaliyyət göstərir. Heç şübhəsiz ki, Azərbaycan dövləti tərəfindən dini icmalara göstərilən maddi və mənəvi dəstəkdən qeyri-islam dini icmaları da kənarda qalmır. Onlar hər zaman dövlətimizin qayğı və diqqətini hiss edir, Dövlət Komitəsi ilə yaxından əməkdaşlıq edir, Azərbaycanda, eləcə də bölgəmizdə multikulturalizm, tolerantlıq prinsiplərinin əbədi bərqərar olması işinə öz töhfələrini verirlər. Eyni zamanda, onların dini bayramlarını və ibadətlərini yerinə yetirmələri üçün həm Dövlət Komitəsi, həm də yerli icra hakimiyyəti orqanları tərəfin-

⇨ 13

## BÖLGƏ MÜDİRLƏRİMİZ HESABAT VERİR






# şəki

12⇦ dən lazımi şərait yaradılır, dini bayramları ilə əlaqədar keçirilən tədbirlərdə müsəlman dini icmaları da yaxından iştirak edirlər.

Artıq 2016-cı ilin ilk ayları arxada qalmışdır. Bu mənada ilin ilk aylarını çox uğurla başlamışıq. Belə ki, "Dini ekstremizmlə mübarizə sahəsində görülən işlər və qarşıda duran vəzifələr"lə bağlı 2016-cı il 24 fevral tarixində Şəki şəhərində Azərbaycan Respublikası Baş Prokurorluğunun, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin, Daxili İşlər, Ədliyyə nazirliklərinin, Dövlət Təhlükəsizlik Xidmətinin Şəki, Oğuz, Qax, Zaqatala və Balakən rayonlarındakı yerli şöbələrinin məsul nümayəndələrinin iştirakı ilə geniş seminar-müşavirə keçirilmişdir. Müşavirədə Dövlət Komitəsi sədrinin müavini Səyavuş Heydərovun məruzəsi tədbir iştirakçıları tərəfindən yüksək maraqla qarşılanmış, dini ekstremizm, radikal dini cərəyanlarla mübarizə istiqamətində həm Şəki bölgəsi üzrə şöbənin, həm də aidiyyəti qurumların üzərinə düşən vəzifələrin müəyyən edilməsi və bu istiqamətdə birgə fəaliyyətin vacibliyi üzərində xüsusilə dayanılmışdır.

Məlum olduğu kimi, 2016-cı il Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən "Multikulturalizm ili" elan edilmişdir. Multikulturalizm respublikamızın hər yerində olduğu kimi, Şəki bölgəsində də ta qədimdən günümüzədək yerli əhalinin həyat tərzi olmuşdur. Bununla əlaqədar, Dövlət Komitəsinin rəhbərliyi tərəfindən şöbə əməkdaşlarının qarşısında böyük və həlli vacib olan vəzifələr müəyyənləşdirilmişdir. "Multikulturalizm ili" çərçivəsində 2016-cı il 1 mart tarixində Şəki şəhər 7 saylı tam orta məktəbdə "Multikulturalizm: sözdə və əməldə" mövzusunda tədbir keçirilmişdir. Tədbirdə Azər-baycan Respublikasının Pre-zidenti yanında Bilik Fondu, Şəki şəhər İcra Hakimiyyəti, Təhsil Nazirliyinin, Gənclər və İdman Nazirliyinin, eləcə də DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsinin məsul işçiləri iştirak etmiş, mövzu ilə bağlı öz fikirlərini söyləmişlər. Tədbirdə "Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları" adlı təzəcə çapdan çıxmış kitabın təqdimat mərasimi olmuş və onun ilk nüsxələri iştirakçılara paylanmışdır. Digər bir tədbir isə 2016-cı il 3 mart tarixində bölgə şöbəsinin, Şəki şəhər İcra Hakimiyyətinin və Şəki Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə "Multikulturalizm ənənəsinə sadiqlik" mövzusunda baş tutmuşdur. Tədbirdə DQİDK-nın Şəki bölgəsinin, Şəki Şəhər İcra Hakimiyyətinin, Heydər Əliyev Mərkəzinin, AMEA-nın Şəki Regional Elm Mərkəzinin əməkdaşları, din xadimləri və gənclər iştirak etmiş, mövzu ətrafında çox dəyərli fikirlər səsləndirilmiş və dinləyicilərin çoxsaylı sualları cavablandırılmışdır.



Geridə qoyduğumuz illərə nəzər saldıqda, qürur hissi ilə deyə bilərik ki, ölkəmizdə dövlət-din münasibətləri uğurla inkişaf edir. Heç şübhəsiz ki, bunun əsasında Ümummilli Liderimiz Heydər Əliyevin müəyyən etdiyi və bu gün möhtərəm Prezi-dentimiz cənab İlham Əliyev tərəfindən daha yeni müstəvidə aparılan dövlət siyasəti dayanır.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri cənab Mübariz Qurbanlının bölgələrə səfəri, "Ənənəvi İslam və müasirlik" mövzusunda keçirilən konfranslarda iştirakı və söylədiyi nitqlər, yerlərdə din xadimləri, dini icma sədrləri ilə görüşləri həm Dövlət Komitəsi əməkdaşlarının, həm də din xadimlərinin fəaliyyətinə stimul verir. Eyni zamanda, Dövlət Komitəsi sədrinin müavinlərinin, əməkdaşlarının yerlərdə keçirilən müxtəlif tədbirlərdə iştirakı, məscidləri, dini tədris ocaqlarını ziyarət etmələri, din xadimləri ilə görüşləri bölgə şöbə müdirlərinin və əməkdaşlarının daha səmərəli və məqsədyönlü fəaliyyətinə geniş imkanlar açır.

Şəki bölgəsi üzrə şöbə olaraq çalışacağıq ki, bu gündən sonra da fəaliyyətimizi dövrün tələblərinə uyğun quraq və 2016-cı ildə qarşıya qoyulmuş işlərin öhdəsindən layiqincə gələk. Çünki həllini gözləyən bazi məsələlər hələ də qalmaqdadır.

***Gündüz PAŞAYEV,***
***DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsinin müdiri***

# Abşeronda dini ekstremizmə qarşı mübarizə sahəsində görülən işlər müzakirə edilib



Abşeron rayonu Xırdalan şəhərindəki Heydər Əliyev Mərkəzində "Azərbaycanda radikal dini cərəyanlar və onlara qarşı mübarizə" mövzusunda seminar-müşavirə keçirilib. Tədbir Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin, Baş Prokurorluğun, Daxili İşlər və Ədliyyə nazirliklərinin, Dövlət Təhlükəsizliyi Xidmətinin və Abşeron Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə reallaşıb.

Yerli icra hakimiyyəti orqanlarının rəsmi şəxsləri, bu qurumların Sumqayıt şəhəri, Abşeron, Xızı, Qobustan, Zəngilan, Qubadlı və Şuşa rayonlarındakı strukturlarının rəhbər və məsul nümayəndələrinin iştirak etdiyi tədbiri Abşeron Rayon İcra Hakimiyyətinin başçısı İradə Gülməmmədova açıb. O, ölkəmizdə müxtəlif dini konfessiyaların əsrlərdir sərbəst və qarşılıqlı anlaşma şəraitində fəaliyyət göstərdiklərini, onların dilinə, dininə, mədəniyyətinə xalqımız tərəfindən daim yüksək qiymət verildiyini bildirib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov seminarda dini radikalizm və onun fəsadları barədə çıxış edib. Bəzi qüvvələrin din pərdəsi altında ölkəmizin ictimai-siyasi sabitliyinə, dövlətimizin hüquqi-demokratik əsaslarına qarşı yönəlmiş pozuculuq fəaliyyətləri, vətəndaşlarımızı xaricdə fəaliyyət göstərən dini ekstremist qrupların və onların silahlı dəstələrinin tərkibinə qoşmaq cəhdləri qətiyyətlə pislənilib, bu cür əməllər törətməyə cəhd edənlərə qarşı dövlət qurumları tərəfindən aparılan mübarizə tədbirləri barədə geniş məlumat verilib.

Sonra Baş Prokurorluğun idarə prokuroru Alim Cəbrayılov, Daxili İşlər Nazirliyi Baş İctimai Təhlükəsizlik İdarəsinin rəis müavini Hikmət Eyvazov və digərləri çıxış edərək, ölkəmizdəki multikultural və tolerant mühitin təməlində Azərbaycançılıq ideologiyasının dayandığını bildiriblər. Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində ölkəmizdə müxtəlif dinlərə etiqad edən insanlar mehriban və qarşılıqlı hörmət şəraitində yaşayır, respublikamız tolerantlıq və multikulturalizm nümunəsinə çevrilib.

Seminarda müxtəlif dini cərəyanlar və onların fəaliyyət metodları haqqında ətraflı məlumat verilib. Ölkəmizdə qarşıdurma yaratmağa çalışan qüvvələrə qarşı mübarizədə hamının sayıqlıq göstərməsinin vacibliyi vurğulanıb.

Seminar-müşavirə işini müzakirələrlə davam etdirib.

***Fəlsəfə artıq bizə dünyanın dəyişilməz, sabit və nisbi-sabit (yəni dəyişilən) qanunları barəsində çoxdan qərarlaşmış qanunlar toplusu vermişdir. Tarix səhnəsindəki yaşam təcrübəsi isə fəlsəfədən də əvvəl bəşər övladına öyrətmişdir ki, təbiət qanunları birmənalı olaraq dəyişməzdir. Bu baxımdan, əzəli qanunları dəyişmək istəyənləri cəzalandıran ulu təbiətin dərsləri də insana örnəkdir və olmalıdır da.***



# NOVRUZ ATRİBUTLARInın fəlsəfəsi və yaşanan ənənəsi

Təbiətin sehrli qüvvələri, təbiət hadisələri, o cümlədən ana torpağın hər il yenilənən məhsuldarlığının müqəddəs sirləri barəsində kültürümüz və məişətimizə daxil olan Novruz bayramı qədim zamanlardan günümüzədək gəlib çatan adətlər və yerinə yetirilən ayinlər toplusundan ibarətdir.

Novruzun Ahura Mazdanın adı ilə bağlı olduğunu göstərən tədqiqatçılar sübut etməyə çalışırlar ki, Novruz Zərdüştiliyin müqəddəs bayramıdır. Zərdüştilik mərasimləri Ahura Mazdanın təbiət ünsürləri, yaxud obyektlərini yaratdığı günləri ehtiva edir və hər mərasim azı beş gün təntənə ilə davam edir.

Ancaq odun yaranması şərəfinə baharda - gecə ilə gündüzün bərabərləşdiyi gündə keçirilən Novruz bayramı hələ o dövrlərdə də təntənəli surətdə qeyd olunurdu. Payızda - gecə ilə gündüzün bərabərləşdiyi gün keçirilən Mitraqan bayramı isə yalnız öz təmtərağı və əzəməti ilə Novruza yaxınlaşırdı.

Bəşər övladının özünü dərk etmə cəhdləri çox qədimlərə - üç min illik tarixə söykənir. Ətraf hadisələri və öz yaradılışının səbəbini anlamağa çalışan insanoğlu həmin andan etibarən özünü dərk etmənin fəlsəfəsini yaratmışdır.

Novruz kimi bayramların təqvimdə yer alması təbiətin möhtəşəm qüvvələri qarşısında aciz qalmış ibtidai insanın mistik düşüncə tərzindən irəli gəlmir. Əksinə, bu gündən baxarkən həmin insanın aktiv, yaradıcı ağla malik olmasından xəbər verir.

Min illər öncə suyun, atəşin, torpağın, havanın müqəddəsliyini, bu dörd ünsürün insan nəslinin var olması üçün əvəzedilməzliyini anlayan insanın əqidəsində göründüyü kimi, heç nə dəyişməmişdir. Belə ki, əslində təbiət adlı "susan fəlsəfə" sözlərini öz dilində əbədi olaraq təkrar etməkdədir. İnsanın böyüklüyü isə ondadır ki, o, ağlının gücü ilə təbiət hadisələri üzərində apardığı müşahidələri toplamış, bu hadisələr barəsində ağlında yaranan ideyaları elmdə nəzəriyyələrə, təcrübədə unudulmaz günlərə, hadisələrə çevirə bilmişdir.

Novruz çərşənbələrindən birincisinin su çərşənbəsi olmasının öz fəlsəfəsi var. Su həyatdır, onun müqəddəsliyi bu əziz gündə xüsusi vurğulanır. Bu müqəddəs ünsürün fəlsəfi-tarixi izahına nəzər saldıqda isə yerin formalaşması, orada insanın yaşaması, həyatın bərqərar olması üçün aramsız yağan yağışlardan bəhs edildiyini görürük. Böyük su tutumu olan okeanların əmələ gəlməsi yer üzünün su balansının bərqərar olmasıdırsa, fikrimcə, insanların nalayiq hərəkətləri ilə çirklənmiş yer üzünün aramsız yağan yağışlarla yuyulub arınması da təbiətin hökmünün təntənəsidir. Vaxtilə baş vermiş Nuh tufanı bəşərə daima bunu xatırlatmalıdır.

Beləliklə, su varlığın mövcudluğu üçün rütubəti təşkil edəndə də, dünya evinə aludəlikdən yaranmış günahları yuyub aparanda da eyni dərəcədə təqdir edilməlidir. Suyun müqəddəsliyinə aid olan inanclar içərisində qədim elimizin belə inancları var: "Süfrəyə suyun dağılması aydınlıqdır"; "Su kiçiyin, yol böyüyündür"; "Lal axan sudan keçməzlər"; "Hava qaralanda qaynar suyu torpağa atmazlar". Su çərşənbəsi günü səhər tezdən mənbədən axan təmiz su ilə qapı-bacanın yuyulması və boş qabların doldurulması suyun bolluq və bərəkət gətirəcəyinə inamın əlamətidir.

Su, od, külək, torpaqdan xəlq olundu dünya. Aləmdə bunlar olmasa, həyat mövcud ola bilməzdi. Dünyanın ilk materialist filosofları sayılan hind çarvakları dünya "binasının" əsasında bu dörd ünsürün dayandığını söyləyən "pionerlər" olmuşlar. Onları təkrarlayan digər təfəkkür bahadırları fəlsəfədə sadəlövh materialistlər adlandırdığımız antik yunan filosofları Anaksimen, Anaksimandr, Fales, Heraklit olmuşdur. Sonralar dünyanın mövcudluğunun maddi əsasını bu ünsürlərin təşkil etdiyini materialist fəlsəfənin nəhəngi Aristotel də söyləmiş və qeyd etmişdir ki, dünya bu dörd ünsürün qatılaşması və seyrəkləşməsindən əmələ gəlmişdir.

Məhz Novruz adı ilə mövcud olan bu bayram son minilliklərin türk əsilli xalqlarının adət-ənənəsində əhəmiyyətli yer tutur. Rəvayətə görə, türk xaqanlarından biri neçə illər əvvəl baş vermiş savaşın tarixini öyrənmək istəyir. Ancaq xaqanın əyanları, hətta sərkərdələri belə, döyüşün vaxtını dəqiq müəyyənləşdirə bilmirlər. Bundan təəssüflənən xaqan gələcəkdə baş verə biləcək belə yanılmaların qarşısını almaq üçün yığıncaq çağırır və müdriklərə göyün 12 bürcünə və dövrün hər ilinə bir ad qoymaq təklif edir. Daha sonra bu məqsədlə əyan-əşrəfi ilə ova çıxan xaqan gördüyü hər bir heyvanın adını bir bürcdə əbədiləşdirir: siçan, öküz, pələng, dovşan, əjdaha, at, qoyun, meymun, xoruz, it və donuz. Beləliklə, 12 heyvanın adı ilə yaranıb tarix səhifələrində özünə mötəbər yer tutmuş təqvim araşdırmaçıların etirafına görə, tarixə dünyanın ən dəqiq təqvimi kimi daxil olmuşdur. Təqvim 365 gün 5 saat 50 dəqiqə 47 saniyədən ibarətdir. Bu təqvimə görə ilin təhvil olunduğu gün yeni ilin (novruzun) ilk günü sayılır.

Keçmişin dərinliklərindən boylanan insanın mövcud olmasının maddi və mənəvi qatlarını araşdırarkən ulu təbiətin ona bu mövcudluq üçün hər şeyi – qızınmaq üçün günəşi, rütubəti yaratmaq üçün dənizləri, okeanları, ulduzları, nəfəs almaq üçün havanı, əkmək, becərmək, bolluq əldə etmək üçün torpağı verdiyini görürük.

Zəncan, Ərdəbil, Təbriz camaatının nəql etdiyinə və bunları bizə söyləyən bir alim dostumuzun dediyinə görə, bu mahallarda baharın bu gününü, yəni yazın bərabərlik gününü analar bayramı kimi qeyd edirlər. Hesab edirəm ki, çox uyğun bir analogiyadır. Belə ki, bir çox toplumların əqidəsinə əsasən, bu bayram yerin oyanması, təbiətin yenidən doğuluşu və çiçəklənməsi, digər topluma görə yeni həyatı insana bəxş edən varlığın məhrəm, isti qoynundan varlığımızın nəşət tapdığı insanların - anaların bayramıdır.

Qadınlar, analar həm də bu bayramın təşkilində və onun adətlərinin ötürülməsində əhəmiyyətli rol oynayırlar. Novruz ailələrdə nəsillərin bir araya gəlməsinə, xeyirxah qonşuluq əlaqələrinin möhkəmlənməsinə, sözün geniş mənasında xalqlar və müxtəlif toplumlar arasında sülhün və əmin-amanlığın da yenilənməsinə xidmət edir. Bayram müxtəlif ayinlərin icrası və mədəni tədbirlərin həyata keçirilməsi ilə (hər ailədə və toplumda) müşayiət olunur. Belə ki, bu bayrama ənənəvi oyunlar, xüsusi yeməklər daxil olmaqla, insanlar təbiətə, şifahi xalq ədəbiyyatına, sənətkarlıq və rəngkarlığa (əsasən miniatür sənətinə) müraciət edirlər. Bayram yalnız onda iştirak edənlərin



mədəni yaradıcılığı üçün meydan açmayıb, həm də o yaradıcılığı özündə ehtiva edərək saxlayır. Novruz özündə mənəvi mədəniyyətin bütöv bir kriteriyalar toplusunu birləşdirməklə həm də qədim zamanlardan böyük bir coğrafiyanın təkrarlanan adətləri ilə yaddaşlara hopmuşdur. O, özündə əsasında miflər dayanan çoxlu mədəni forma və ifadələri birləşdirir.

Novruz həm də bu bayramı keçirən xalqlar üçün əsrlər öncə də, günümüzdə də bayrama gələn qonaqlara təqdim etməyə al-əlvan bir ekspozisiyadır. Bu ekspozisiyada gəlinlərə hazırlanmış sırğalar, boyunbağılar və baş bəzəkləri ilə bərabər, onların ipəkli-qızıllı saplarla nəfis işlənmiş cehizləri nümayiş etdirilir. Bu nəsnələrin arasında adi məişət əşyalarından muzeylik əşyalaradək tapmaq olar. Burada yurd mədəniyyətinin daxili koloritinə görə bir-birinə bənzəməyən nümunələr - metaldan, keramikadan, dəridən hazırlanmış müxtəlif qablar, örtülər, işləmələr, muncuqlu tikmələr, bir sözlə, göz oxşayan sənətkarlıq nümunələri yer tapır. Yun məmulatları, ov və toy səhnələrini əks etdirən xalçalar, palazlar, şallar, corablar, əlcəklər də bunlardan geri qalmır.

Vələs, qarağac, cır albalı (vişnə), qoz və şabalıd ağaclarından hazırlanmış qablar, sandıqçalar və qiymətli əşyaları yığmaq üçün mücrülər, şahmat fiqurları və s. bu bayram sərgisinin vaz keçilməzləridir.

Bu sadaladıqlarımızın fonunda Allahdan buta almış aşıqların çaldığı müqəddəs saz və qara zurnanın qanları coşduran sədaları altında igidlər at üstündə mübarizə apararaq çövkən oynayar, keçi və maral oynadar, kəndir üzərində gəzişər, qurşaq tutardılar. İndinin özündə də Novruz çərşənbələrində gənclər və uşaqlar tonqalların başına toplaşıb atlanır, Novruz nəğmələri oxuyur, müxtəlif rəqslər edir, bayatılar söyləyirlər.

Novruz bayramı ərəfəsində ev əhlinə, xüsusilə uşaqlara yeni paltarların alınması, bayram günü evin yaşlı sakinləri ilə birinci salamlaşmaq, sonra qohum və qonşulardakı yaşlıları, əlilləri, ehtiyacı olanları ziyarət etmək, onlara bayram hədiyyələri və bayram şirniyyatları hədiyyə vermək xalqımızın əsrləri aşan adətlərindəndir.

Bu gün UNESCO xətti ilə Novruz bayramının keçirilməsinə nail olan ölkəmiz dünya ölkələri birliyində həm modern ölkə, həm də öz tarixi köklərinə bağlı olan qədim bir məmləkət kimi tanınmaqdadır. Xalqlar tarix səhnəsində özlərinə məxsus olan yerin dəyərini dərindən anlayıb, bu dəyərin qiyməti nə olursa-olsun qiymətləndirəndə kənardan da cəlbedici görünürlər. Bu gün bizim üçün bu fikri isbata ehtiyac yoxdur. Dövlət yetkililərimizin xalqın gen yaddaşında olan belə günlərin dünya mədəniyyətinə inteqrasiya etdirməsi buna bariz nümunədir. Bir azərbaycanlı miladi tarixi ilə yenilənən ilin dəyişməsini də qeyd edər, amma o öz əcdadlarının gen yaddaşına hopmuş bayramları daha çox gözləyər. Genetik yaddaşında kodlaşmış əziz günlər ona daha əziz, daha doğmadır. Məhz elə buna görədir ki, bu günlər əsrlərdir gizli (məlum səbəblərdən), aşkar yad olunurlar. Əziz məmləkətimə - onun bayramların fəlsəfəsini və ənənəsini yaşamağa qadir olan insanına yeni ilin gəlişi münasibəti ilə xoş sürprizlərlə dolu günlər arzulayırıq.

***Mətanət ŞƏKİXANOVA,***
***fəlsəfə doktoru, dosent***



*Cəlaləddin Rumi (1207-1273) indiki Əfqanıstan ərazisində yerləşən Xorasanın Bəlx şəhərində dünyaya gəlmişdir. Atası Bəlxin tanınmış şəxslərindən, "Alimlər sultanı" ləqəbli Bahəddin Vələd, anası isə Bəlx əmiri Rüknəddinin qızı Möminə Xatundur. Sonralar ailəsi ilə birgə Anadoluya köçən Bəhaəddin 1228-ci ildə Səlcuqların paytaxtı Konya şəhərində məskunlaşmışdır.*

# MÖVLANAnın təfəkkür dünyası və ilahi eşq

Atasının vəfatından sonra Mövlana dini təhsilini 1232-ci ildə Konyaya gələn Seyid Bürhanəddinin yanında davam etdirmiş və doqquz il ona xidmət göstərmişdir. O, 38 yaşında ikən məşhur sufi-alim və şair Şəmsəddin (Şəms) Təbrizi ilə tanış olmuşdur. Bu tanışlıq Cəlaləddinin dünyagörüşünə dərin təsir göstərmiş, onun düşüncə dünyasını kökündən dəyişmişdir. Şəmsə qeyri-adi məhəbbətlə bağlanan Cəlaləddin müəlliminin günlərin birində sirli şəkildə yoxa çıxmasından sarsılmışdır. O, müəlliminə olan məhəbbətini, onun yoxluğundan doğan kədər və həsrəti əsərlərində – məsnəvilərdə, rübai və qəzəllərdə ifadə etmişdir. Nizami, Xaqani kimi, Rumi də şeirlərini fars dilində yazmışdır. Türk dilində onun yalnız bir neçə şeiri və farsca-türkcə müxəmməsi qalmışdır.

Şəhərdən-şəhərə köçən Mövlananın fikirləri böyük monqol axınları ilə qarışan etnik ünsürlər arasında formalaşmışdır. Bir çox millətlərlə, yeni məkanlarla, insanlarla qarşılaşması yeni anlayışların ortaya çıxmasını labüd etmişdir. Mövlana belə bir vəziyyətdə Qərbin 700 il sonra sahib olacağı humanizm anlayışını ortaya qoymuşdur. İnsanlığın sintezi içində xalq, ya da irq anlayışı onun üçün yalnız ilahi olan fərqli görünüşlərdir. Başqa heç bir ayrı-seçkilikdən söhbət gedə bilməz. "Gəl-gəl, yenə gəl! Nə olursan ol, yenə də gəl. İstər xristian, istər məcusi, istər bütpərəst ol..." sözləri onun humanizm anlayışını açıq şəkildə ifadə edir.

Mövlana təkamül anlayışına sahibdir. Ancaq bu, bioloji çevrilmədən daha çox mənəvi təkamüldür. Onun fikrincə, "ilahi məndən" çıxan ruh təkamül prosesinə girir. Proses eyni "ilahi mənə" yaxınlaşaraq davam edir. Kainatda olan bütün varlıqlar bu qanuna tabedir. Varlıq ilahi qaynağına tərəf getməyə can atır və ona qovuşmaq üçün daxili hisslərə tabe olur. Mövlana buna eşq deyir. Ona görə, bu müddətin müəyyən məqsədi var - Tanrıya qovuşmaq. Həyatın məqsədi və mövcudluğu Tanrıdır. Yaradılışın məqsədini və Tanrını dərk etməyən insan heyvana bənzəyir. Düzgün dərk etmə qabiliyyəti isə insanı ilahi məqama çatdırır.

Mövlananın fəlsəfəsi "Divan" adlı əsərində aydın görünür. Onun təfəkkür dünyası araşdırıldığı zaman mərkəzi yeri insanın tutduğu görünür. Azı altmış min beytdən ibarət əsərlərində Mövlana bizə daim mükəmməl insan obrazını təqdim edir: gözəl əxlaq sahibi, dürüst, çalışqan, təvazökar, xoşgörülü, qısacası, nümunəvi insan olmanın yollarını göstərir. Xüsusilə, "Məsnəvi"də özüylə, Yaradanla və digər bütün varlıqlarla barışıq yaşayan, dinc və xoşbəxt insanın tərifi açıq şəkildə müşahidə edilir.

Digər təsəvvüf əhli kimi Mövlana da insanın ruhunu ucaltmasının, kamilliyə yetişməsinin sevgiylə mümkün olduğuna inanır. Çünki eşq həyatın qaynağı, kainatın yaradılış səbəbidir. Uca Yaradanın bir qüdsi hədisdəki "Mən gizli xəzinəydim, bilinmək istədim və xalqı (aləmləri və insanı) yaratdım" xitabı da insanın yaradılmasındakı yeganə məqsədin Allahı tanımaq, sevmək və Ona qulluq etmək olduğunu ortaya qoyur. "Madam ki, kainatın yaradılışı və davamı sevginin məhsuludur, elə isə hər insan bu sonsuz sevgidən öz payını almalıdır" düşüncəsindən yola çıxan Mövlana, hər insanın bu sevgi dairəsinə daxil olmasını hədəfləmişdir. Ancaq bu sevgi Yaradanla, kainatla və bəşəriyyətlə bütünləşən, heç vaxt azalmayan və zədələnməyən həqiqi sevgi olmalıdır.

Təsəvvüfdə "kəsbi" olaraq xarakterizə edilən bu sevgi məcazi və ya bəşəri eşq deyil, "ilahi eşq"dir.

Yaradanı unudaraq mal, mülk, mövqe kimi tələləri olan dünyaya könül vermək isə yalnız əsarətdir, sevgi deyil. Məcazi eşq isə yalnız könül saflığı və səmimiyyət nəticəsində aşiqi Allaha qovuşdura bilər; eynilə Məcnunun Leyliyə duyduğu eşqlə yola çıxıb, Mövlaya yetişməsi kimi. Ancaq bu, çox nadir rastlanan haldır. Bu səbəbdən insan əvvəlcə Yaradana könül verməli, maddi tellərlə özünü dünyaya məhkum etmədən, ilahi sevgiylə ruhunu yüksəltməyə cəhd göstərməlidir.

Eşq insanların ehtiras, qürur, qısqanclıq və kin kimi mənfi xüsusiyyətlərinin yeganə həkimidir. Cəmiyyətdə ilahi sevgi ilə könüllərini təmizləyən insanlar üstünlük təşkil etdiyi zaman natamamlıqlar aradan qalxar, sülh, əmin-amanlıq hakim olar. Bu həqiqi sevgi insanı dünyada xoşbəxtliyə qovuşdurmaqla yanaşı, axirəti üçün də böyük qazanc təşkil edər. Yunus Əmrənin "Eşq məzhəbi-dindir mənim üçün" misrasında ifadə etdiyi kimi, Mövlana da eşqi dinin əsası kimi təqdim edir. Eşqdən payı olmayanlar isə imanın dadını bilməyən, yaradılışın sirrini anlamayan, fani mənliyini əbədiyyətə yüksəldə bilməyən kəslərdir.



Göründüyü kimi, Mövlananın düşüncələri ilahi sevgi ilə kamilləşən ideal insanın yolunu işıqlandırmağa istiqamətlənmişdir. Onun fəlsəfəsi bu gün də maraqla oxunur və tədqiq edilir. Mövlana dühası təkrar-təkrar oxunduqca yeni fikirlər, yeni düşüncələr ortaya çıxır. Bu da Mövlanə fikrinin, fəlsəfəsinin nə qədər zəngin olduğunu bir daha sübuta yetirir.

*Hazırladı: Orxan MAŞAYEV*

# DİNİ QURUMLARIN DÖVLƏT REYESTR MƏLUMATI

**Neftçala rayonu Mürşəqulu kəndi**
**"Xanım Zeynəb" məscidi dini icması**
**Qeydiyyat tarixi: 05 dekabr 2009-cu il**
**Qeydiyyat №-si: 100109A2 – 52**

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Bağırov Ağaddə Seyidağa oğlu, Cəfərov Həsən Sadiq oğlu, Cəbrayılov Hidayət Şirəli oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar. Məlikov Elman Hüseynbala oğlu, Bağırov Mircəlal Mirbağır oğlu, Bağırov Mirqalib Mirbağır oğlu, Tağıyev Alim Xanoğlan oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər. Bağırov Ağaddə Seyidağa oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Bağırov Mirbağır Mirkamal oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

**Dəyişikliklərin qeydiyyat tarixi:**
**29 fevral 2016-cı il**

---

**Daşkəsən şəhəri**
**"Cümə" məscidi dini icması**
**Qeydiyyat tarixi: 16 iyul 2010-cu il**
**Qeydiyyat №-si: 100110A3 – 442**

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Məmmədov Hüseyn Əmikişi oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır. Bayramov Zaur Yaqub oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

**Dəyişikliklərin qeydiyyat tarixi:**
**11 fevral 2016-cı il**

---

**Saatlı rayonu Varxankənd kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 29 iyul 2010-cu il**
**Qeydiyyat №-si: 100110A4-455**

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Xusainov Məhiyar Əhməd oğlu, Əhmədov Məmməd Əhməd oğlu, Əhmədov Mustafa Əhməd oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar. Murulov İsmayıl Həmid oğlu, Veysəlov Alim Asifoviç, Mərdiyeva Cəmilə Aydın qızı dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

**Dəyişikliklərin qeydiyyat tarixi:**
**11 fevral 2016-cı il**

---

**Oğuz rayonu Kərimli kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 08.05.2002-ci il**
**Qeydiyyat №-si: 115**

Oğuz rayonu Kərimli kənd məscidi dini icması təsisçilərinin 21.01.2016 tarixli, 01№-li protokolu ilə həmin dini icmanın ləğv olunması barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

**Qeydiyyata alınma tarixi:**
**11 mart 2016-cı il**

---

**Bakı şəhəri Əzizbəyov rayonu Mərdəkan qəsəbəsi "Heydər Cümə" məscidi dini icması**
**Qeydiyyat tarixi: 13.01.2008-ci il**
**Qeydiyyat №-si: 1308B1 – 501**

Bakı şəhəri Əzizbəyov rayonu Mərdəkan qəsəbəsi "Heydər Cümə" məscidi dini icması təsisçilərinin 25.02.2016 tarixli, 01№-li protokolu ilə həmin dini icmanın ləğv olunması barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

**Qeydiyyata alınma tarixi:**
**11 mart 2016-cı il**

# Cəmiyyət və Din

№ 03 (296) / MART 2016-cı il


## Dövlət Komitəsi müsabiqə elan edir

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi dini icmalar arasında Ümummilli Lider Heydər Əliyevin 93 illiyi münasibətilə "Heydər Əliyev şəxsiyyəti multikultural və tolerant dəyərlər işığında" mövzusunda məqalə müsabiqəsi elan edir.

Müsabiqəyə ölkəmizdə tarixən mövcud olan multikultural və tolerant mühit, o cümlədən əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş dövlət-din münasibətlərinin inkişaf etdirilməsi istiqamətində görülən işlər barədə məqalələr göndərilə bilər. Həmçinin müasir dövrdə ölkəmizdə müxtəlif dinlərin və dini konfessiyaların nümayəndələrinin birgəyaşayış mədəniyyətini, bu sahədəki Azərbaycan təcrübəsinin dinlərarası və məzhəblərarası münasibətlərə verə biləcəyi töhfələrdən bəhs edən məqalələr də qəbul olunur.

### KRİTERİYALAR

- Məqalə innovativ və əhatəli olmalıdır;
- Müsabiqə elan olunduqdan sonra qəzet və ya elektron internet portallarında dərc edilməlidir;
- Məqalənin həcmi səkkiz min işarədən artıq olmamalıdır. (1,5 aralıq məsafə ilə təxminən 3-4 A4 formatlı vərəq həcmində);
- Yazılar qəzetdə dərc edilərsə: A4 formatlı vərəqdə (Times New Roman 14 şrift) və 1 nüsxə qəzet şəklində Dövlət Komitəsinə təqdim olunmalıdır;
- Elektron portalda dərc edilərsə: A4 formatlı vərəqdə (Times New Roman 14 şrift) çap olunmalı və link əlavə edilərək Dövlət Komitəsinə təqdim edilməlidir.

**MÜKAFAT**

**I yer – 500 AZN   II yer – 400 AZN   III yer – 300 AZN**

**Hər biri 100 AZN olmaqla üç həvəsləndirici mükafat.**

Müsabiqənin müddəti: **3 mart – 20 aprel 2016-cı il**

**Əlaqə telefonları: (012) 437 31 15 / (012) 492 65 23**
**E-mail: press@scwra.gov.az, scwra.2001@gmail.com**
**Ünvan: Bakı şəhəri, Əhməd Cavad 12**

## İslam sevgi dinidir və Tac Mahal bunun əyani sübutudur



Sevgi məfhumu geniş olduğu kimi, təzahür formaları da müxtəlifdir. Bunlardan ilki və ən önəmlisi bir insanın digərinə duyduğu sevgi hissidir. Bu mənada Tac Mahal insanlar üçün çox şey ifadə edir. Bu əzəmətli binanı Hindistan hökmdarı Cahan şah sevdiyi xanımın - Mümtaz Mahalın (Ərcümənd banu) xatirəsinə tikdirmiş və bütün dünyanın hər zaman onu xatırlamasını istəmişdir. İslam aləminin böyük tarixi-mədəni dəyərlərindən sayılan bu saray özündə şiə və sünni sevgisinin harmoniyasını ehtiva edir. Belə ki, Cahan şah sünni, xanımı isə şiə məzhəbinə mənsub olmuşdur. İslamın iki ayrı məzhəbinə qulluq edən bu iki insan bir-birini sevib evlənmişlər.

Abidənin mövcudluğu bir daha göstərir ki, fərqli məzhəblərə mənsub insanların evliliyinə heç bir qadağa yoxdur və Cahan şah ilə Mümtaz Mahal məzhəb ayrılığını özləri üçün maneə yox, əksinə, iki məzhəbin sevgi vəhdəti kimi görmüşlər.

Rabindranat Taqorun təbirincə desək, "bu abidə zamanın üzündə bir damla yaşdır". UNESCO isə bu əzəmətli tikilini Dünya Mədəni İrsinin abidələri siyahısına salmışdır.

### Yadigar söz

Cəvahirləl Nehru
*(hind siyasi xadimi)*

**Müharibə humanizmin və həqiqətin inkarıdır. Məsələ təkcə insanların öldürülməsində deyil, zatən insan əvvəl-axır ölür. Məsələ, şüurlu şəkildə nifrətin və yalanın insanlara aşılanmasındadır.**

## Bakı və Abşeron üzrə namaz vaxtları

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 aprel | 06:03 | 07:25 | 13:45 | 18:14 | 20:19 | 21:21 |
| 2 aprel | 06:01 | 07:24 | 13 44 | 18:14 | 20:20 | 21:22 |
| 3 aprel | 06:00 | 07:22 | 13:44 | 18:15 | 20:21 | 21:24 |
| 4 aprel | 05:58 | 07:20 | 13:44 | 18:16 | 20:22 | 21:25 |
| 5 aprel | 05:56 | 07:19 | 13:44 | 18:16 | 20:23 | 21:26 |
| 6 aprel | 05:54 | 07:17 | 13:43 | 18:17 | 20:24 | 21:27 |
| 7 aprel | 05:52 | 07:16 | 13:43 | 18:18 | 20:25 | 21:28 |
| 8 aprel | 05:51 | 07:14 | 13:43 | 18:18 | 20:26 | 21:30 |
| 9 aprel | 05:49 | 07:12 | 13:42 | 18:19 | 20:27 | 21:31 |
| 10 aprel | 05:47 | 07:11 | 13:42 | 18:20 | 20:28 | 21:32 |
| 11 aprel | 05:45 | 07:09 | 13:42 | 18:20 | 20:29 | 21:33 |
| 12 aprel | 05:43 | 07:08 | 13:42 | 18:21 | 20:30 | 21:35 |
| 13 aprel | 05:41 | 07:06 | 13:41 | 18:22 | 20:31 | 21:36 |
| 14 aprel | 05:40 | 07:05 | 13:41 | 18:22 | 20:32 | 21:37 |
| 15 aprel | 05:38 | 07:03 | 13:41 | 18:23 | 20:33 | 21:39 |
| 16 aprel | 05:36 | 07:02 | 13:41 | 18:23 | 20:34 | 21:40 |
| 17 aprel | 05:34 | 07:00 | 13:40 | 18:24 | 20:36 | 21:41 |
| 18 aprel | 05:32 | 06:59 | 13:40 | 18:25 | 20:37 | 21:42 |
| 19 aprel | 05:31 | 06:57 | 13:40 | 18:25 | 20:38 | 21:44 |
| 20 aprel | 05:29 | 06:56 | 13:40 | 18:26 | 20:39 | 21:45 |
| 21 aprel | 05:27 | 06:54 | 13:39 | 18:27 | 20:40 | 21:46 |
| 22 aprel | 05:25 | 06:53 | 13:39 | 18:27 | 20:41 | 21:48 |
| 23 aprel | 05:24 | 06:51 | 13:39 | 18:28 | 20:42 | 21:49 |
| 24 aprel | 05:22 | 06:50 | 13:39 | 18:28 | 20:43 | 21:50 |
| 25 aprel | 05:20 | 06:49 | 13:39 | 18:29 | 20:44 | 21:52 |
| 26 aprel | 05:18 | 06:47 | 13:39 | 18:30 | 20:45 | 21:53 |
| 27 aprel | 05:17 | 06:46 | 13:38 | 18:30 | 20:46 | 21:55 |
| 28 aprel | 05:15 | 06:44 | 13:38 | 18:31 | 20:47 | 21:56 |
| 29 aprel | 05:13 | 06:43 | 13:38 | 18:31 | 20:48 | 21:57 |
| 30 aprel | 05:12 | 06:42 | 13:38 | 18:32 | 20:50 | 21:59 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Mərəzə, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Fizuli, Horadiz, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Xanlar, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim Azərbaycan MEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

## "Qədim tarixi Quran kitabları" sərgisi

Milli Kitabxanada müqəddəs Quranın nüsxələri sərgilənir. Sərgi Mədəniyyət və Turizm Nazirliyi Milli Kitabxana və Azərbaycan Respublikası Qadınlar Cəmiyyəti ilə birgə multikulturalizm ili ilə əlaqədar olaraq açılıb.

"Qədim tarixi Quran kitabları" adlı sərgidə bölgələrdən toplanmış Qurani-Kərim kitabları nümayiş etdirilir. Quran sərgisinin açılışında Respublika Qadınlar Cəmiyyətinin sədri Bahar Qasımova, "İbrət" ictimai-dini redaksiyasının sədri hacı Atif İsmayılov, Heydər məscidinin axundu, Bakı İslam Universitetinin rektoru hacı Sabir Həsənli, Məşədi Dadaş məscidinin axundu hacı Şahin Həsənli və başqaları çıxış ediblər.

Çıxışçılar Respublika Qadınlar Cəmiyyətinin "İbrət" ictimai-dini redaksiya ilə birlikdə araşdırmalar aparmasından, Azərbaycanın bölgələrində qorunan qədim tarixə malik Qurani-Kərim kitablarının toplanmasından, Quran nüsxələrinin araşdırılması və qorunması haqqında apardıqları müzakirələrdən, serginin vacibliyindən, əhəmiyyətindən və s. danışıblar.

Qeyd edək ki, tədbir iştirakçılarının böyük marağına səbəb olan sərgi 3 gün davam edəcək.

### Bahar gəlir YURDumuza!!!




Baş redaktor **Səyyad ARAN**

**Redaksiya şurası:** Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Vasim MƏMMƏDƏLİYEV, Oqtay ORUCOV *(məsul katib)*, Gennadi ZELMANOVİÇ.

Ünvan: AZ 1001, Bakı şəhəri, Əhməd Cavad küçəsi, 12
Telefon: 492 65 23; 437 31 15
Tel/fax: 497 15 39
492 58 29; 437 31 15
E-mail: redaksiya@scwra.gov.az

**Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:**
Bakı şəhəri üzrə şöbə - (055) 635 98 90
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 05 33
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
**Tiraj:** 1200
**Sifariş:** 568

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894